Hamlet İsaxanlı

Müasir dünyada ali təhsil sistemində nələr baş verir...

2008

Hamlet İsaxanlı

# Müasir dünyada ali təhsil sistemində nələr baş verir

və

## "2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" necə olsa yaxşıdır?

Xəzər Universitəsi Nəşriyyatı

**Hamlet İsaxanlı**

# Müasir dünyada ali təhsil sistemində nələr baş verir

**və**

**"2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" necə olsa yaxşıdır?**

**Xəzər Universitəsi Nəşriyyatı**

© Xəzər Universitəsi Nəşriyyatı, 2008
Bütün hüquqlar qorunur.

İsaxanlı, Hamlet.

Müasir dünyada ali təhsil sistemində nələr baş verir və "2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Programı" necə olsa yaxşıdır? / Hamlet İsaxanlı.

ISBN 978-9952-20-044-7

1. Avropa və Azərbaycanın təhsil sistemi-Tarix
2. Bologna Prosesi. 3. Çağdaş ali təhsil.
4. Qloballaşma. 5. Elmi araşdırmalar.

378.94754-dc22

İÇİNDƏKİLƏR

Ön söz ............................................................................ 5
Arzularla gerçəklik arasında sürünmək də olar, qanad çalmaq da ............................................................. 7
Avropada ali təhsilin dünəni ....................................... 12
Azərbaycanda ali təhsilin dünəni və Bologna Prosesi 20
Çağdaş ali təhsil və ali məktəb .................................... 25
Ali məktəblər və rəqabət ............................................. 28
Təhsil sistemində islahat və onun təsir gücü ............... 31
Təhsildə keyfiyyət və standartlar ................................. 34
Ali təhsilin əlçatan (əlyetən) olması. Dünya və Azərbaycan ............................................................ 37
Ali təhsilimiz niyə kifayət qədər əlyetən deyil? .......... 42
Ali təhsildə keyfiyyət kimlər tərəfindən və necə ölçülür? ................................................................ 48
Ali təhsil sistemində idarəetmə ................................... 54
Ali təhsildə qeyri-akademik xidmət ............................ 61
Qloballaşma ilə internasionallaşma. Yollar, meyl və əlamətlər ............................................................. 69
Sənaye-iş dünyası, yüksək texnoloji inkişaf və ali təhsil ................................................................... 73
Ali təhsilin maliyyələşdirilməsi .................................. 80
Ali təhsildə qanunvericilik siyasəti ............................. 84
Ali təhsil və elmi araşdırmalar .................................... 87
Ali məktəb və əmək bazarı .......................................... 92
Ali məktəb, sərvət və innovasiya ................................ 96
Ali təhsil ocaqlarının maddi bazası və ölçüsü ............. 100
Biz də xarici ölkəyik! .................................................. 104
Hər gün mükəmməlliyə doğru .................................... 106
Gələcəyə nikbin baxış ................................................. 109

# Ön söz

Azərbaycan Respublikasında ali təhsilin ümumi və xüsusi problemlərinə, ali təhsillə elmin, dövlətin, iş dünyasının münasibətlərinə, ali təhsil sahəsində dünyada gedən proseslərin Azərbaycanda baş verənlərlə müqayisəsinə və nəhayət, Azərbaycan Prezidentinin imzaladığı ali təhsil sistemində islahatlar üzrə dövlət proqramının hazırlanması işinə aiddir bu yazı. Burada ali təhsil sistemimizdə yaranmış əsas problemlərin, dünya təcrübəsi və Azərbaycanın inkişafı baxımından təhlili verilir və onların müəyyən həlli yolları göstərilir.

*Bu yazı üzərində çalışarkən təhsil siyasəti haqqında yazdığım məqalə və kitablardan bəhrələnməklə yanaşı zamanımızda cərəyan edən hadisələr barədə son elmi araşdırmalara müraciət etməli oldum. Avropa Universitet Assosiasiyasının (European University Association) hal-hazırkı pre-*

*zidenti, Vyana universitetinin keçmiş rektoru, Avstriya rektorlar konfransının keçmiş prezidenti Georg Winckler, İsveçrə federal hökumətinin və canton hökumətlərinin müşaviri, Geneva universitetinin keçmiş rektoru, İsveçrə rektorlar konfransının sədri, Avropa Universitet Assosiyasını quran idarə heyəti üzvü Luc E. Weber və Michigan universitetinin fəxri təqaüdçü prezidenti James J. Duderstadt və bəzi digər görkəmli mütəxəssislərin sayəsində əldə etdiyim məlumatlar işimə çox yaradı; onlara dərin minnətdarlığımı bildirirəm. "The Glion Colloquium Association"a və uzun illərdir oxuduğum "The Chronicle of Higher Education"a minnətdaram. Bir sıra mühüm məsələlərin müzakirəsinə şərait yaratdıqları üçün Azərbaycan Prezidenti Yanında Təhsil Komissiyası üzvlərinə təşəkkür edirəm.*

*Hamlet İsaxanlı*

## Arzularla gerçəklik arasında sürünmək də olar, qanad çalmaq da...

20-ci yüzilliyin böyük qismində təhsil, o cümlədən ali təhsil dövlət işi, ictimai əmtəə, hökumətin yetişdirdiyi məhsul, dövlətin öz xalqına göstərdiyi xidmət hesab olunub. Müasir çağda isə ali təhsil həm dövlət işidir, həm özəl fəaliyyət növüdür. Təhsil fərdləri də, cəmiyyəti də dəyişdirir, inkişaf etdirir və şübhəsiz ki, o həm ictimai, həm də özəl mahiyyət daşıyır. Dünyadakı aparıcı meyllər isə ali təhsilin get-gedə daha çox özəl işə çevrildiyini, özəl xidmət olduğunu göstərir. Lakin hər zamankı kimi, bu gün də ali təhsil sahəsində düzgün dövlət siyasəti olmadan böyük uğur qazanmaq mümkün deyil.

Dünyadakı demək olar ki, bütün inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər ali təhsillə bağlı üç böyük məsələni eyni zamanda həll etmək istəyirlər: 1) ali təhsili kütləviləşdirmək, yəni mümkün qə-

dər hamı üçün əlçatan etmək, 2) ali təhsilin keyfiyyətini artırmaq və 3) dövlətin ali təhsilə çəkdiyi xərcləri artırmamaq (çox artırmamaq, heç artırmamaq və hətta azaltmaq). Bir-biri ilə tam uyuşmayan məsələlərin eyni vaxtda həlli əlbəttə ki, çox çətin işdir. Daim gündəlikdə olan bu məsələnin ideal həlli yoxdur, az-çox qəbul oluna bilən həlli isə çox dərindən işlənmiş dövlət proqramı və onun yerinə yetirilməsi üçün zəruri olan siyasi iradə və ciddi, düzgün idarəetmə tələb edir.

"Təhsil dövlətin ən vacib, bir nömrəli məsələsidir" fikri mübahisəsiz qəbul olunmur. Dildə, daha doğrusu siyasi meydanda bu fikir təsdiq edilsə də, gerçəklik fərqlidir. Bəs sosial təminat, xüsusilə təqaüd fondu? Bəs səhiyyə sığorta sistemi? Bəs yoxsulluqla mübarizə? Bəs milli təhlükəsizlik?... Bunlar da dövlətin ən vacib, bir nömrəli olmağa namizəd məsələlərindən deyilmi? Məsələnin çətinliyi və dünya təcrübəsi "ali təhsil təkcə dövlətin işi deyil, get-gedə daha çox özəl bölmənin işidir" fikrinin əsassız olmadığını göstərir. İnkişaf etmiş, inkişaf etməkdə olan bütün dünya, Qərb, Yaxın və Uzaq Şərq bunu qəbul edib və ya qəbul etməyə məcbur olub.

Müasir çağda sərvətin, pulun gücü siyasətə, orduya, vətəndaşlıq vəzifəsinə nisbətdə qat-qat artıb. Lakin insan ləyaqətinin, sevgi və azadlıq hisslərinin də güclü olması sərvətlə ədalət arasında müəyyən

tarazlığın əmələ gəlməsinə, müvazinətin müəyyən dərəcədə saxlanmasına gətirib çıxarır. Bu tarazlığı qoruyanlar arasında dövlət, media və təhsil sistemini həlledici hesab etmək olar. Kütləvi informasiya vasitələri gündəlik hadisələri və qayğıları ön plana çəkdiyi üçün təhsil ocaqları, xüsusilə də universitələr üzərinə daha dərin və uzunvədəli vəzifə düşür. Tədris bəşəriyyətin əldə etdiyi bilik xəzinəsini yeni nəsillərə ötürməyə, tədqiqat isə bu bilikləri genişləndirib zənginləşdirməyə və tətbiq edərək həyatı yaxşılığa doğru dəyişdirməyə imkan verir. Cəmiyyət qarşısında məsuliyyətin, vətəndaşlıq hisslərinin dərki, mədəniyyətin hifzi və inkişafı məsələlərində də təhsil ocaqları həlledici güc sahibidir.

Azərbaycanda da yüksək nüfuzlu ali məktəblərin yaranması və inkişaf etməsi ümumxalq işidir. Ümumxalq dedikdə dövləti və insanları nəzərdə tuturam. İnsanlar, fərdlər öz işini həvəslə, ehtirasla, fədakarlıq və peşəkarlıqla görməsələr dövlət daxilində işlər yürüməz. Bu, təhsildə xüsusilə belədir. Digər tərəfdən isə dövlət şərait yaratmasa, qanun-qayda çərçivələri düzgün cızılmasa, düzgün plan qurulmasa, özəl işə çəkilən zəhmət də lazımi bəhrəsini verməz.

Dövlət ali təhsil sistemini bütövlükdə inkişaf etdirmək, yəni islahat aparmaqla onu dəyişmək, yeniləşdirmək və gücləndirmək vəzifəsini üzərinə gö-

türməlidir. Bu vəzifə, görünür ki, iki hissədən ibarətdir. Birinci – müasir dünyada gedən proses, cərəyan və meylləri çox diqqətlə izləyib təhlil etməklə, təhsil sistemimizdə bu gün mövcud olan problemləri və onların həlli yollarını araşdırmaqla dünya ilə səsləşən islahat proqramı tərtib etmək lazımdır. Bu barədə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" sərəncam imzalamışdır (31 yanvar 2008-ci il). "2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" layihəsinin hazırlanması bu sərəncamın mühüm maddəsidir. Bu yazımızın əsas məqsədi "Bu Dövlət Proqramı necə olsa yaxşıdır?" sualına düzgün və əhatəli cavab tapılmasına, az da olsa, kömək etməkdir.

Ali təhsil sistemində güclü islahat aparmaq vəzifəsinin ikinci hissəsi qəbul olunacaq Dövlət Proqramının ardıcıl və inadcıl şəkildə həyata keçirilməsidir. Həyatımız boyu çox planlar görmüşük, yaşımızdan o yana da çox planlar qurulduğu haqqında oxumuşuq. Bu planların az hissəsi tam, nəzərdə tutulduğu şəkildə həyata keçirilib, böyük qismi kağız üzərində qalıb və ya mahiyyətcə deyil, səthi şəkildə işlər görülüb, həyat isə əvvəlki kimi (və ya

cüzi fərqlə) davam edib. İnkişaf etməkdə olan ölkəmizin, xalqımızın, dövlətimizin vaxt itirməyə, düzgün planları yarımçıq qoymağa ixtiyarı yoxdur. Çünki inkişafımızın ən mühüm tərkib hissələrindən biri inkişaf etmiş dünyanın təhsil, elm və texnologiya sahəsindəki uğurlarını mənimsəyərək ölkəmizdə tətbiq və inkişaf etdirməkdən ibarətdir. Vaxtında irəli getməyən geri qalır. Arzularla gerçəklik arasında sürünmək də olar, qanad çalmaq da...

## Avropada ali təhsilin dünəni

Təqribən 500 il əvvəl Avropa tarixin yeni ağası, yeni rəhbəri rolunu öz üzərinə götürməyə başlamışdı. Avropalıların Amerikanı kəşf etmələri və yer kürəsinin kəşfinə girişmələri onların kiçik dünyasını birdən-birə çox böyütdü. Mətbəənin və kitab çapının Avropada böyük güc qazanması, universitetlərin və elmi düşüncənin formalaşmağa başlaması ilə *tarixin Avropa dövrü* başlandı. Kapitalizmin inkişafı ilə Avropa qalan dünyanı geri buraxdı. Lakin 20-ci əsrdə avropalılar arasında qarşıdurma və kütləvi qırğın zenitə qalxdı, Avropa iki dünya müharibəsinə meydan oldu. 1945-ci ildə Amerikalılar və Sovetlər Avropanın ortasında, Almaniyada qarşılaşdılar - bu, tarixin Avropa dövrünün, dünya siyasəti və iqtisadiyyatında *Avropa hegemonluğunun sonu* idi.

1957-ci il Sovet sputniki göyü deyil, Amerika və

Avropanı silkələdi; silkələdi, hətta lərzəyə saldı və... səfərbərliyə aldı. Qərbdə inteqrasiya meylləri ciddi surətdə artmağa başladı. 1957-də imzalanan Avropa Iqtisadi Birliyi (Avropa «Ümumi Bazar»ı) haqqında saziş (Roma) təhsili hələ ümumavropa işi kimi görmədi. 60-cı illərdə *Avropa Universitet rəhbərlərinin daimi konfransı* adlı (fransızca abbreviaturası ilə tanınırdı – CRE, sonrakı Avropa Universitet Assosiasiyasının sələfi) ilk ümumavropa ali təhsil qurumu yaradıldı. 1971-də isə altı üzv – təhsil nazirinin ilk rəsmi görüşü və çərçivə bəyannaməsi əmələ gəldi; bu görüşlər dövri xarakter aldı. 70-ci illərin sonunda təhsildə bir-birini tanıma məsələsi formalaşdı və 80-ci illərin ortalarında tələbələrin, tədqiqatçı və müəllimlərin bir ölkədən digərinə hərəkət etmə mexanizmi işlənildi, 1987-də başlayan məşhur «ERASMUS» və sonralar "SOCRATES" kimi proqramlar bu işi uğurla həyata keçirməyə başladılar. Bu illərin maraqlı sənədlərindən biri 1988-də Bolognada (Bolonyada) imzalanan «*Magna Charta Universitatum*» idi, bununla Avropada ali məktəblərin müstəqilliyi ön plana çəkildi. 1991-ci ildə imzalanan Maastricht sazişi isə Avropa Birliyinin «təhsil, keyfiyyət naminə treyninq və mədəniyyətin çiçəklənməsinə» çalışmaq fikrini rəsmiləşdirdi.

Sosializmin iflasından sonra Şərqi Avropa və

keçmiş Sovetlərin ali təhsil sisteminin müasirləşməsinə kömək məqsədi ilə Avropa Birliyi yeni TEMPUS adlı proqramı həyata keçirməyə başladı (1990) . Bu gün də davam edən bu proqram şərq-qərb ali təhsil əməkdaşlığını canlandırdı və xeyli genişləndirdi.

*Ali təhsilə aid kvalifikasiya və sənədlərin tanınması* haqqında Avropa Şurası və UNESCO-nun birgə Konvensiyası (*Lissabon, 11 aprel 1997*) Avropa ali təhsil sisteminin bütövləşdirilməsi yolunda daha bir addım sayıla bilər. Bu konvensiya ali təhsil almaq imkanı, təhsil müddəti və ali təhsil sənədlərinin tanınması, həmçinin uyğun mexanizmlərin yaradılması məsələlərini əhatə edirdi.

Şengen anlaşması, vahid pul vahidi kimi birləşmiş Avropa siyasətini yürüdən dövlətlər ali təhsildə də əl-ələ tutub yeni addımlar atmalı idilər.

*1998-ci il mayın 25-də Universite Paris-Sarbonne'*da dörd böyük Avropa dövlətinin - Fransa, Italiya, Böyük Britaniya və Almaniyanın ali təhsilə məsul nazirlərinin görüşündə «*Avropa ali təhsil sistemi memarlığını həmahəng etmək (arxitekturasının harmonizasiyası) haqqında birgə bəyannamə (deklarasiya)*» qəbul edildi. Bu deklarasiya Avropa Ali Təhsil Məkanının yaradılması və onun açıq elan edilməsi, tələbələrin bir ölkədən digərinə keçib təh-

silini davam etdirməsi və bunun tədris kreditləri deyilən ölçü vahidləri ilə tənzimlənməsi fikrini irəli sürdü. Ali təhsilin iki pillədən ibarət olması və birinci pillədən sonra tədris və tədqiqatın magistratura və ya daha uzun müddətli doktorantura çərçivəsində aparılması barədə razılıq əldə edildi.

Dörd ölkənin təşəbbüsünü ümumavropa hərəkatına çevirmək məqsədilə *1999-cu il iyunun 19-da Avropanın ən qədim universitəsinin qurulduğu Bologna*da (Bolonyada) 29 Avropa ölkəsinin ali təhsilə cavabdeh olan nazirlərinin görüşü keçirildi. Keçmiş sovetlərdən üç Baltikyanı dövlətin də iştirak etdiyi bu görüşdə «Avropa təhsil nazirlərinin birgə deklarasiyası» qəbul edildi. Qısa zamanda, *2010-cu ilə kimi* qlobal yarışda ön sıraya çıxa bilən *Avropa Ali Təhsil Məkanı* (AATM, ingiliscə EHEA, yəni European Higher Education Area) yaratmaq üçün aşağıdakı hədəflərə çatmaq qərarlaşdırıldı (sadəlik üçün bu maddələri birgə deklarasiyada olduğu kimi bir-bir deyil, qruplaşdırılmış şəkildə veririk):

1. Asan anlaşılan və müqayisə edilə bilən və *iki əsas-alt və üst pillədən (dövrədən) ibarət təhsil sistem*i həyata keçirmək. Birinci və ya alt pillə ən azı 3 il sürməli, ikinci və ya üst pillə isə magistr (master) və/və ya doktor dərəcəsinə aparmalıdır.

2. Tələbələrin, müəllim, tədqiqatçı və inzibati iş-

çilərin ölkələrarası sərbəst hərəkət edə bilməsini təmin etmək; tələbələrin hərəkətini müəyən edərkən *Avropa Credit Keçid Sistemi* (AKKS) tətbiq etmək. [Hər fənnin tutumu, daşıdığı yük kredit deyilən vahidlə ölçülür və tələbənin ali təhsilin hansı nöqtəsində olması onun oxuduğu fənlər və qazandığı (topladığı) kreditlərin miqdarı ilə müəyyən edilir. Bir ali məktəbdən (ölkədən) digərinə gedən tələbə çatışmayan fənləri oxuyur və kreditlərini toplamağa davam edir.]

3. Ali təhsildə Avropa ölçünü və dəyərini müəyyən etməyə çalışmaq. *Keyfiyyətin təmin edilməsi* məqsədi ilə kriteriya və metodologiyaların hazırlanmasında əməkdaşlıq etmək.

Bu proqramı həyata keçirərkən *milli təhsil sistemlərinə, dil və mədəniyyət fərqlərinə, universitetlərin muxtariyyətinə hörmətlə yanaşılması*nın vacibliyi xüsusi qeyd olundu.

Avropa Ali Təhsil Məkanı yaratmaq prosesi bundan sonra *Bologna Prosesi* adını aldı (zənnimcə, *Sarbonne-Bologna prosesi* daha doğru ad olardı).

Bologna Prosesinin uğurla həyata keçirilməsini koordinasiya etmək və prosesə qoşulmaq istəyən yeni ölkələri qəbul etmək üçün *təhsilə məsul nazirlər iki ildən bir görüşməyə başladılar*. 2001, 19 may, Praqada və 2003, 19 sentyabr, Berlin görüşlə-

rində Bologna Prosesinə qoşulan Avropa ölkələrinin sayı 40-a çatdı. 2005-ci il, 19 may, Bergen (Norveç) görüşü nəticəsində Azərbaycan da rəsmi olaraq bu prosesə quşuldu, ölkələrin sayı 45 oldu (hal-hazırda, 2007-ci il London görüşündən sonra bu say 46-dır).

Ali məktəblərin və tələbələrin Bologna Prosesində mühüm oyunçu olduqları, birinci növbədə onları dinləmək, onlarla hesablaşmaq lazım gəldiyi hamı tərəfindən qəbul edildi. Nazirlər Avropa Universitet Assosiasiyası (EUA), Avropa Ali Məktəblər Assosiasiyası (EURASHE), Avropa Milli Tələbə Birlikləri Assosiasiyası (ESIB), Avropa Keyfiyyətin Təminatı Şəbəkəsi (ENQA) kimi təşkilatlarla sıx əlaqədə işləmək, onlarla əməkdaşlıq etmək zəruriyyətini qeyd etdilər.

Bologna Birgə Deklarasiyasının inkişafı kimi Avropa Ali Təhsil Məkanı ilə yanaşı *Avropa Araşdırma Məkanı* yaradılmasının vacibliyi, doktorluq (Ph.D) proqramlarının həm təhsilin üçüncü yüksək pilləsi, həm də elmi-tədqiqat dərəcəsi olduğu qeyd edildi. *Birgə (ölkələrarası, universitetlərarası) magistr və doktor proqramları*nın işlənilməsi fikri irəli sürüldü (və sonrakı illərdə həyata keçirilməyə başlanıldı!). Nazirlər bütün imkan və vasitələrdən istifadə edərək *hamının ali təhsil almasına imkan* ya-

ratmağı öhdələrinə götürdülər.

Avropa universitetlərinin əsas tələbi isə *məsuliyyətli müstəqillik* oldu. Yuxarıdan sərt inzibati idarəetmənin tətbiqi ali məktəbin dinamik inkişafına mane olur, dəyişən mühitin tələblərinə çevik cavab verməsinə, rəqabət gücünü artırmasına imkan vermir.

Avropa Birliyini dünyanın ən inkişaf etmiş bilik iqtisadiyyatına çevirmək məsələsini qarşıya qoyan Lissabon strategiyası (2000-ci il) Avropa Ali Təhsil və Elm Məkanlarının yaradılması məqsədini güdən Bologna prosesi ilə birlikdə bütöv Avropa qurmaq hərəkatının tərkib hissəsidir.

Bologna Prosesi ali təhsil modelinin seçimində Avropanın Amerikanı nümunə götürdüyünü göstərir. Bologna prosesi *Avropa ali təhsil sisteminin amerikalaşma yolunda olduğu*nu nümayiş etdirməkdədir. Üçpilləli dərəcə sistemi üzərində qurulan ali təhsil və araşdırma məkanı, kredit vahidlərinin toplanması üzərində qurulan müqayisə və akkumulyasiya prinsipi məhz dünyada ali təhsilin lideri olan Birləşmiş Ştatlardan gəlir. Keyfiyyətin ölçülməsi məsələsində xeyli dağınıqlığın olduğu Avropada, nəhayət ki, 2008-ci ilin aprel ayından başlayaraq çoxdan gözlədiyimiz ümumavropa mexanizminin qurulmasına işarə verildi.

Göründüyü kimi Bologna prosesi təkcə kredit

sistemindən ibarət deyil! (Azərbaycanda Bologna prosesi ilə kredit sisteminin tətbiqini, demək olar ki, eyniləşdirirlər). Ali təhsilin əlyetən olması, ali məktəblərin üş pilləli təhsl modeli ilə fəaliyyət güstərməsi, magistratura və doktorantura səviyyələrində birgə dərəcələr verilməsi, bu cür ideyalar ətrafında ali məktəblər şəbəkələrinin qurulması, ali təhsil sistemlərinin müqayisə oluna bilən hala gətirilməsi-harmonizasiyası, ali məktəblərin müstəqilliyi, şəffaflığı və məsuliyyəti, elmi araşdırmaların ön plana çəkilməsi, hər şeyin əsasında yüksək keyfiyyətin dayanması, ümumavropa keyfiyyət ölçülərinin hazırlanması – bunlardır Bologna prosesinin əsas elementləri! Bir sözlə, Bologna prosesinin istəyi Avropanı keyfiyyətli ali təhsil və səviyyəli elmi araşdırmalar məkanına çevirməkdir.

# Azərbaycanda ali təhsilin dünəni və Bologna Prosesi

1991- ci ildə müstəqilliyə qovuşan Azərbaycan dövlətində təhsillə bağlı problemlər qızğın müzakirə mövzusuna çevrildi. Bir şey aydın idi – təhsil sistemini sürətlə və elliklə, yəni bötövlükdə dəyişmək mümkün deyil, mümkün olsa da, təhlükəlidir. Sovet tipli təhsil formaları ən azı bir müddət, ətalətlə davam edəcəkdi. Digər tərəfdən isə dəyişməkdə olan dünyaya yeni siyasi və iqtisadi modellərin daxil olması ilə yanaşı mahiyyətcə və formaca yeni təhsil ocaqlarının yaranması, ölkəyə yeni təhsil modellərinin daxil olması da təbii hadisə idi.

Tarix boyu kiçik ölkələr (və bir sıra böyük ölkələr) özlərinə xas olan və başqalarından çox fərqlənən təhsil sisteminə malik olmayıblar. Yalnız böyük dövlətlər və imperiyalar, böyük sivilizasiyalar

özlərinə məxsus təhsil sistemi qurmuş, bu mədəniyyəti qəbul etmiş və ya onun təsirində olan xalqlar isə, mümkündür ki, kiçik dəyişiklərlə, bu sistemi mənimsəmişlər**.** Azərbaycan təhsil tarixini və təhsil sistemini də ayrıca, təcrid olunmuş şəkildə deyil, onun daxil olduğu, tərkib hissəsi olduğu sivilizasiyalara nəzər salmaqla öyrənmək, dövrləşdirmək və təhlil etmək lazımdır.

19-cu yüzilliyə qədər təhsil ənənəvi islam məktəb-mədrəsə sisteminə əsaslanırdı. 19-cu əsr bu ənənəvi sistemlə rus təhsil sisteminin paralel varlığı ilə xarakterizə oluna bilər. 20-ci əsr Azərbaycanda Rusiya-Sovet təhsil sistemi hökmran idi.

Dünya ali təhsilində baş verənləri öyrənmək, təhlil etmək və Amerika təcrübəsini əsas götürməklə 1990-cı ilin payızından başlayaraq Xəzər Universitəsi qurulmağa başlanıldı. Ölkəmizdə ilk dəfə olaraq bakalavr, magistr, doktor (Ph.D) dərəcə və proqramları üzərində iş getdi, kredit sistemi deyilən və hər tələbəyə fərdi təhsil trayektoriyası ilə irəliləmək imkanı verən model quruldu. Tələbənin biliyinin 100 ballıq və pilləli qiymətləndirmə sistemi, universitə kataloqlarının dövri nəşri, tələbələrlə anonim sorğu keçirmək siyasəti həyata keşirildi. Ölkədə hökm sürən müəllim mərkəzli sistemdən interaktiv təlim üsullarına əsaslanan tələbə mərkəzli

sistemə keçildi (bu, fərqli bir təhsil mədəniyyətinin əsasında durur). Təhsilə aid çoxsaylı müasir anlayış, forma və üsullar ölkəmizdə ilk dəfə və ciddi surətdə məhz Xəzər universitəsində müzakirə və tətbiq olundu, sınaqdan keçdi və cilalandı.

Ali təhsilin məhz bu modelini işləyib həyata keçirməyimizin iki əsas səbəbi vardı - Amerikanın ali təhsil sahəsində sözsüz dünya lideri olması və Azərbaycanın da daxil olacağı Avropanın yaxın gələcəkdə bu modelə üstünlük verəcəyinə inamımız. Bu belə də oldu - 1999-cu ildə başlanan və Avropa Ali Təhsil Məkanı yaratmaq məqsədi güdən ümumavropa təhsil islahatları proqramının (Bologna Prosesinin) məğzı məhz Amerika ali təhsil modeli əsasında Avropa təhsil sistemlərini bir-birinə yaxınlaşdırmaq, ahəngə qovuşdurmaq idi. Beləliklə, Xəzər universitəsi Avropada Bologna Prosesi başlamazdan 8 il əvvəl özünə və Azərbaycana yeni yol açdı, gələcəyin təhsil modelini uğurla həyata keçirərək ölkənin əsas təcrübə meydanı rolunu oynadı.

İki pilləli təhsilə ölkəboyu keçid isə ciddi hazırlıq aparılmadan, addım-addım deyil, elliklə, kompaniya şəklində həyata keçirildiyi üçün ali məktəblər bakalavr və magistr proqramlarının məqsəd, məzmun və fərqlərini tam dərk edə bilmədilər, bu natamamlığın izləri bu gün də görünməkdədir. Üstəlik

*magistraturadan sonrakı təhsil-tədqiqat sisteminin mahiyyəti və forması* ölkədə bu gün də aydınlaşmamış vəziyyətdədir. Artıq çox cüzi istisnalarla Avropada və bütün dünyada qəbul olunmuş üçpillıli sistemə qarşı Azərbaycanda anlaşılmaz bir müqavimət mövcuddur, Milli Məclisimizin bu məsələyə münasibəti hələlik qəribədir: «nə şiş yansın, nə kabab», «nə olar, qoy bir pillə də artıq olsun?!».

Müstəqillik dövründə təhsil sahəsində atılmış mühüm addımlara və qazanılmış uğurlara (xronoloji ardıcıllıqla) misallar gətirək:

1. Özəl təhsil bölməsinin yaranması və fəaliyyəti. Əlbəttə, özəl ali məktəblərin çox yaxşısı, ortababı, zəifləri var. Lakin bu bölmənin inkişaf tempi və yeniliyə açıq olması onun rəqabət gücünü artırır. Korrupsiya ilə mübarizədə ciddi uğur qazanmış və ya ən müasir təhsil-təlim formalarını tətbiq edərək keyfiyyətə nail olmuş təhsil müəssisələrinə azsaylı misal adətən özəl bölmədən gətirilir! 2. Tələbə qəbulu üzrə mərkəzi imtahan sisteminin yaranması və fəaliyyəti (heç bir ölkədə olmayan ifrat mərkəzləşdirmənin naqis cəhətləri ilə yanaşı). 3. Dövlət tərəfindən maliyyələşdirilən latın qrafikası ilə kitab nəşri. 4. Məktəb tikintisi və təmiri işinin canlanması.

Qazandığımız uğurlara göz yummaq ədalətsizlik olardı. Günümüzün həyati vacib məsələsi isə geri

qaldığımız sahələr barədə düşünmək, dünya təcrübəsindən faydalanmaq, inkişaf strategiyamıza yenidən baxmaqdır.

*Xəzər universiteti nəzdində Təhsil Siyasəti institutu* fəaliyyət göstərir. İnstitutun məqsədi təhsildə dünya təcrübəsini öyrənmək, keyfiyyətin artırılması və onun ölçülməsi problemləri üzərində çalışmaq, Azərbaycanda təhsil siyasətinin və təhsil sisteminin inkişaf yollarını araşdırmaq, xüsusi halda Bologna Prosesini yaxından izləmək və maraqlı tərəflərə bu sahədə yardım göstərməkdir. Deyəsən bu institut dünyada təhsil sahəsində baş verən bütün hadisələri izləyə bilən, onları təhlil edib, araşdırıb tətbiq edə bilən yeganə qurumdur ölkəmizdə.

## Çağdaş ali təhsil və ali məktəb

1930-cu illərə kimi təbiət elmlərinin yazı dili əsasən alman dili olub. Faşizmin baş qaldırması və sonrakı iflası, paralel olaraq Amerika Birləşmiş Ştatlarının güclənməsi nəticəsində alman dili öz yerini ingilis dilinə verməli oldu. İndi elmin əsas dili və dünya xalqlarının ikinci dili ingiliscədir.

İngilisdilli ölkələrin ali məktəblərinin xeyli güclənməsində bu amil mühüm rol oynadı. Amerikanın güclənməsində Avropadan emiqrasiya və "beyin köçü"nün rolu da qeyd olunmalıdır. Birləşmiş Ştatlarla yanaşı Böyük Britaniya, Kanada, Avstraliya ali məktəbləri cazibə mərkəzinə çevrildilər.

Avstraliyaya tələbə axını, xarici ölkələrdə Avstraliya universitələrinin filiallarının əmələ gəlməsi buna parlaq nümunədir. Kontinental Avropa geniş mənada bu yarışda geri qaldı, dil ayrılıqları, ölkə-

lərdəki sosial sığorta qaydaları, məsələn fərqli təqaüd sistemi bu nisbi geriqalmanı şərtləndirən amillərdəndir (Georg Winckler-2008).

Müasir inkişaf meylləri ali məktəblərin tədris (dərs vermək və öyrənmək) və tədqiqat kimi ənənəvi işinə yeni bir işin də əlavə olunduğunu nümayiş etdirir - tədris, elm və praktikanın üzvi vəhdətinə nail olmaq, ideyalar və onların gerçəkləşmə yollarını göstərməklə iş dünyasını gücləndirmək və bu yolla ali məktəbin özünü də gücləndirmək. Müasir dövrdə elm və texnologiyaya əsaslanan iqtisadiyyat, yəni bilik iqtisadiyyatı dövlətlərin əsas inkişaf strategiyalarına çevrildiyi üçün elm və texnologiyanın əsas intellektual yaradıcısı olan ali məktəblərin cəmiyyətdə rolu qeyri-adi dərəcədə artır. Bilik ən yüksək bacarıqdır!

İndi ali məktəblər əvvəlki onilliklərdən fərqli inkişaf strategiyası və fəaliyyət planı qururlar. Bütün ali məktəblər güclənmək istədikləri üçün ali məktəblərin həm ölkədaxili həm də ümumdünya yarışı gedir. Daha yaxşı, yəni daha istedadlı tələbə cəlb etmək (bütün dünyadan!), dövlətdən daha çox maliyyə köməyi almağa layiq olduğunu göstərmək, iş dünyasından daha böyük sifarişlər almaq...bunların hər biri ali məktəbin fəaliyyətində əsasdır. İndi ali məktəb daha dinamikdir, daim dəyişmədədir, iş

dünyası ilə, rəngbərəng sənaye dünyası ilə iç-içə olmağa çalışır. İndi düzgün yolda olan ali məktəbin gücü onun maliyyə gücü, kapitalı, sərvəti ilə düz mütənasibdir.

Tələbənin müasir ali məktəbdə təhsil alma konsepsiyası da dəyişib, genişlənib. Əvvəllər tələbənin ali məktəbə daxil olması mütləq onun öz yerindən qopub həmin ali məktəbin olduğu kampusa, şəhərə köçməsi, orda siniflərdə dərs keçməsindən ibarət idi (qiyabi deyilən və bizim kimi ölkələrdə əsasən mənfi reaksiya doğuran təhsil növünü kənara qoysaq). Indi bir tərəfdən ali məktəb özü də bol tələbə olan yerlərə, o cümlədən xarici ölkələrə doğru hərəkət edir, orada öz filiallarını qura bilir, yəni ali məktəb tələbənin yaşadığı yerə daxil ola bilir, tələbənin yanına gedir. Digər tərəfdən isə müasir yüksək texnologiyaların, xüsusilə də internetin inkişafı sayəsində məsafədən təhsil almaq imkanı yaranır, tələbə öz evində oturub istədiyi ali məktəbin virtual siniflərinə daxil olur, oxuyur-yazır və diplom alır.

Müasir yaxşı ali məktəblər tək tədris və elmi araşdırmaları ilə deyil, tələbə həyatının gözəl təşkili, tələbələrə qeyri-akademik dəstək verən səlist sistemin qurulması ilə də fərqlənməyə, tələbələri bu yolla da cəlb etməyə çalışırlar.

Əlbəttə ki, yuxarıda qısaca təsvir edilən tip müa-

sir ali məktəblər yüksək inkişaf etmiş ali təhsil sistemlərinin içində yetişmişlər, “dünya içində dünya universitələri”dirlər (“universities in the world and of the world”) (James J. Duderstadt-2008).

## Ali məktəblər və rəqabət

Müasir dünyada ali məktəblər ağır qlobal rəqabətə davam gətirmək məcburiyyəti qarşısındadırlar. Yaşamaq və irəli getmək üçün özünü digərlərindən fərqləndirmək, daha yaxşı, daha güclü olduğunu sübuta yetirmək zəruridir. Daha keyfiyyətli təhsil verən, daha böyük nüfuza malik olan təhsil müəssisələri güclü rəqabət qarşısında daim axtarış aparmağa, yeniləşməyə məcbur olur, keyfiyyətə baxışını genişləndirməyə və dəqiqləşdirməyə çalışır. Əslində mükəmməlliyə can atan qurum və ya fərd daim dəyişmədə olmalıdır, bu, həm də onun qarşısına qoyduğu məqsədin təkmilləşməsi, dəyişməsi deməkdir. Bu məqsədlə yola çıxan öz yolu ilə irəlilədikcə məqsəd və hədəf də irəliləyir və bu hərəkət bitmir, dayanmır, dayanmaq məqsəddən yayınmağa, geri qalmağa bərabər olur.

Ali təhsil sistemimizdə rəqabətin aparıcı gücə çevrilməməsi ali məktəblərimizin inkişafdan qalmasının əsas səbəblərindən biridir. Əksər ali məktəblərimiz məqsədin ticarətə yönəlməsi, idarəetmə mədəniyyətinin aşağı olması və keçid iqtisadiyyatına xas olan böyük nöqsanlar və çətinliklər üzündən keyfiyyətə əsaslanan inkişaf yolunu seçmək əvəzinə münasibətlər dalğasından istifadə edib üzdə olmağa çalışırlar.

Ali məktəbin uğur və nöqsanlarını təhlil edərkən onun tipini, təbiətini düzgün anlamaq, məqsəd və vəzifəsini nəzərdən qaçırmamaq lazım gəlir. Ali məktəbi sındırıb ortalama qəliblərə salmaq böyük səhvdir (təəssüf ki, ölkəmizdə belə yanaşma da mövcuddur). Bir ali məktəb əsasən bakalavr dərəcəsi vermək üçün nəzərdə tutulan proqramları həyata keçirməklə məşğul ola bilər. Digərinin bir sıra sahələrdə magistr proqramlarına da marağı ola bilər. Başqa birisi elmi-tədqiqatlara çox əhəmiyyət verməklə magistr və doktor proqramlarını ön plana çəkə bilər. Təbii ki, sonuncu halda ali məktəb elmi araşdırmalarla təhsili bir-birinə qovuşdurmağa çalışır və mövcud, məlum biliyi saxlamaq və ötürməklə, yaymaqla kifayətlənmir, onu inkişaf etdirməyə, yeni bilik istehsal etməyə də böyük önəm verir.

Bir ali məktəb bir və ya bir neçə sahədə ixtisas-

laşmağı üstün tuta bilər, digəri isə çoxsahəli, çoxşaxəli inkişaf strategiyasını əsas götürə bilər.

Keçmiş mirası qorumaq, zövqləri tərbiyə etməkdə də ali məktəbin rolu danılmazdır.

Ali məktəbin iş dünyası ilə əlaqələri çox mühümdür. Dünya qloballaşdıqca böyük şirkətlər, korporasiyalar hər sahədə, o cümlədən də ali məktəblərin inkişafında böyük rol oynaya bilir. Öz növbəsində şirkət və korporasiyaların da ali məktəbin xidmətinə, apardığı tədqiqatlara, yetişdirdiyi mütəxəssislərə ehtiyacı var.

Sadalananlar ali məktəbin tipini, kateqoriyasını göstərməklə yanaşı, onun gücünə də işarədir. Ali məktəb say-seçmə tələbələri ilə, böyük uğur qazanmış məzunları ilə, güclü alim və müəllimləri ilə, kitabxanası ilə… öyünə bilər. Və nəhayət, dəyirman kimi işləyən və diplom üyüdən, qısa zamanda aldadıcı fəndlərlə böyük qazanc əldə etmək istəyən ali məktəblərin varlığını da qeyd edək. Təəssüf ki, onların da öz müştəriləri, öz tələbələri var.

Təhsilin vəzifə və məqsədi ilə, yəni savadlı və mütəxəssis *vətəndaş* yetişdirməklə təhsildə kök salan korrupsiya ilə uyuşa bilməz, keyfiyyətli təhsil və korrupsiya bir-biri ilə tam ziddiyyət təşkil edir. Təhsil cəmiyyəti mobilləşdirmək və bütövləşdirmək, hər kəsə bərabər imkanlar açmaq məqsədi güdürsə, korrupsiya bunun tərsini edir.

## Təhsil sistemində islahat və onun təsir gücü

İnkişafa nail olmağın yolu islahatlardan keçir, inkişaf durmadan irəli atılan düşünülmüş addımlardan ibarətdir. Bu, ölkələrə, hökumətlərə, iqtisadiyyata, siyasətə, təhsilə və digər ümummilli sistemlərə, eləcə də ayrı – ayrı qurumlara aiddir. Ölkə miqyasında zəruri olan islahatlar zamanın tələbindən doğsa da, **əhəmiyyətli uğur əldə edilməsi siyasi iradədən asılıdır**, cəmiyyətin bütün əlaqədar qüvvələri hərəkətə gətirilməlidir.

Islahatlar üzdəki görüntülərə deyil, dərinlərdə duran və sistemin kökündə dayanan cəhətlərə toxunmalı, onları dəyişməyə, yeni nizama, yeni sistemə salmağa yönəlməlidir. Bu iş, düşünülmüş islahat planı ilə bərabər, onun həyata keçirilməsi üçün kifayət qədər vaxt da tələb edir.

Islahat hamar yol deyil, ağır yoldur, uğurlarla bərabər müəyyən səhv addımların atılması da mümkündür. Səhvlərdən nəticə çıxarıb, ümumi planda müəyyən dəyişikliklər edərək yola davam etmək lazım gəlir.

Islahat nəticəsində öz gücünü itirmək təhlükəsi ilə üzləşən dairələr maneçilik törədərək islahatın əl-qolunu bir müddət qandallaya bilər. Effektiv çalışan hökumət cəmiyyətdə, o cümlədən təhsildə korrupsiya və monopoliya ilə aparılan mübarizə islahat proqramlarının uğur qazanması üçün vacib şərtlərdir.

Təhsil sahəsində islahat bütün ölkələrdə ən ağır və ən çətin iş hesab edilir. Bu sahədə köklü dəyişmələr insanların düşüncə tərzində, həyat fəlsəfəsində, cəmiyyətə, xalqa xas olan dəyərlər sistemində yeniləşmə tələb edir. Təhsildə (və insan fəaliyyətinin digər növlərində) müasirlik, yeniləşmə bu günü və gələcəyi eyni zamanda düşünmək deməkdir.

Təhsilin nəticələri və cəmiyyətə təsiri böyükdür, mürəkkəbdir və həlledicidir. Təhsil insanı azadlığa yaxınlaşdırır. Ali təhsil tənqidi düşüncənin bişirildiyi məkandır.

Təhsildəki köklü dəyişmələr nəticəsində fərdlərin dəyişməsi və inkişafı ilə bərabər, ictimai – siyasi mühitin qiymətləndirilməsinə münasibət də dəyişir. Bu zaman bir yandan milli kimliyin, özünüdərkin

güclənməsi baş verirsə, o biri tərəfdən bəşəri dəyərlərə daha dərindən nüfuz etmək imkanı əldə edilir.

Təhsil sahəsində islahatlar təhsil sistemi, onun daşıyıcıları olan təhsil müəssisələrini dəyişdirmək və nəticə etibarilə gücləndirmək məsələsini ortaya qoyur. Bu, fərdlərin dəyişməsindən daha ağır, əslində müqayisə olunmaz dərəcədə ağır məsələdir. Təşkilatların dəyişməsi daha uzun zaman tələb edir və rəhbərlik edən şəxsin və ya heyətin bilik, tərcübə və iradəsinə əsaslanır.

Təhsil islahatının əsas məqsədi insanlara təhsil alma inkanı yaratmaq və təhsilin keyfiyyətini artırmaqdır.

## Təhsildə keyfiyyət və standartlar

İnsan fəaliyyətinin bütün sahələrində olduğu kimi təhsildə də keyfiyyət anlayışına müxtəlif yanaşmalar mövcuddur. Keyfiyyət yüksək standartlara malik olmaqdır, fərqli, istisna xüsusiyyətdir. Standartlar ölçü vahidləridir, keyfiyyəti ölçmək üçün düşünülmüş göstəricilər, parametrlər, indikatorlar sistemidir.

Digər tərəfdən, keyfiyyəti ali məktəbin bütün fəaliyyət sahələrində minimum standartlara malik olması kimi də qəbul etmək olar. Hər sahədə minimum standartları ödəyən qurum əslində ciddi nöqsanların olmamasını təmin etmiş olur. Keyfiyyət gözəgörünən nöqsanların olmaması deməkdir.

Keyfiyyət hər kəsin öz işində məsuliyyəti dərk etməsi, təhsil ocağında iş mədəniyyətinin hökm sürməsi deməkdir, keyfiyyət təhsil ocağının daxili mə-

dəniyyətidir. Keyfiyyət hamının iştirakıdır, komanda işinin təşkili və nəticəsidir.

Keyfiyyət davamlı inkişafa yönələn sistem və üsulların hökm sürməsidir, zəruri işlərin mümkün qədər vaxtında görülməsidir.

Keyfiyət həm də mövcüd formanın əsaslı şəkildə dəyişməsidir, yüksək standartlara doğru yönələn bir hərəkətin, təkmilləşməyə gedən yolun daimiliyidir. Keyfiyyət bir prosesdir və bu baxımdan keyfiyyətin artırılması konsepsiyası keyfiyyətin təminatı və ya keyfiyyətə nəzarətdən daha vacibdir. Eyni zamanda keyfiyyətin idarəolunması, keyfiyyət menecmenti ifadələri çox işlənilir.

Tələbənin müəyyən tədris müddətinin, intervalının (bir semestr, bir il, tam bakalavr və ya magistr proqramı boyu və s.) sonundakı və başlanğıcındakı göstəriciləri arasındakı fərq, daha doğrusu "son göstərici minus başlanğıc göstərici" ali məktəbin (və tələbənin) "əlavə dəyəri" kimi qiymətləndirilə bilər. "Əlavə dəyər"in böyüklüyü ali məktəbin (eləcə də tələbə çalışqanlığının, iradəsinin, həvəsinin) gücünü, effektliliyini göstərən mühüm amildir. Keyfiyyət nəzərdə tutulanla gerçək vəziyyət arasında, tələbatla hal-hazırkı zamana kimi əldə olunmuş nəticə arasında olan yaxınlıqdır. Keyfiyyət içəridən baxışla kənardan baxışın yaxınlığıdır.

Ali məktəb insan gücü yetişdirir və bilik istehsal edir. Ona görə ali məktəbin səviyyəsi bir tərəfdən bu prosesin nə dərəcədə dəqiq və səlist işləməsi ilə, digər tərəfdən isə prosesin nəticəsi ilə, yəni məzunların səviyyəsi ilə, verilən diplomun gücü ilə müəyyən edilir. Ali məktəb tədris prosesindəki imtahanlar silsiləsi və digər tələbatlar ilə tələbənin məzuna, yəni mütəxəssisə çevrilməsi yolunda sanki süzgəclər qoymuş olur. Ali məktəbin gücü və səviyyəsi bu süzgəclər silsiləsinin ciddiliyi və dəqiqliyi ilə birbaşa bağlıdır.

Azərbaycanda hələ də gənclər və onların valideynləri bir çox hallarda ali məktəbi keyfiyyətə, qarşıda duran perspektivlərə görə deyil, ödənişsiz təhsil alma imkanı və ya asan oxumaq, süzgəclərdən rahat keçmək baxımından seçir. Bu, keçid dövrünün xüsusiyyəti və keçmişin ətaləti kimi izah oluna bilər.

## Ali təhsilin əlçatan (əlyetən) olması. Dünya və Azərbaycan

Ali təhsilə daxil ola bilmək, xalqın böyük əksəriyyəti üçün ali təhsilin əlyetən olması (ingiliscə: acsess to higher education), yəni insanlara maneəsiz ali təhsil almaq, ali məktəbə daxil olmaq imkanının verilməsi dünyanın hər yerində dövlətləri və cəmiyyəti məşğul edən, düşündürən məsələdir. Bu, təəssüf ki, Azərbaycanda ən xoşagəlməz və ciddi problemlərdən birinə çevrilib. Burada orta təhsil imkanı ilə ali təhsil imkanı arasında sanki böyük bir uçurum var.

Hal-hazırda ali təhsil alanların nisbi sayına görə Azərbaycan Respublikası nəinki inkişaf etmiş ölkələrdən xeyli geridir, hətta öz keçmiş Sovet qonşularının da böyük əksəriyyətindən geri qalıb, üstəlik bu gerilik ilbəil artır.

Müəyyən yaş qrupunda olan əhalinin təhsilin müxtəlif pillələrində iştirak səviyyəsi təhsil sahəsində aparılan islahatların gücünü ölçən və ümumiyyətlə uyğun ölkənin və ya regionun inkişaf səviyyəsini nümayiş etdirən ən əsas göstəricilərdən biridir.

Ali (bakalavr və daha yüksək dərəcələrə aparan) və natamam ali (önbakalavr dərəcəsinə aparan) təhsildə *ümumi iştirak dərəcəsi* (ingiliscə *gross enrolment rate*) uyğun təhsil ocaqlarında oxuyan tələbə sayının müəyyən yaş qrupunda olan (əsasən beş ili əhatə edən, məsələn, 17-21 və ya 18-22 yaşlı) əhali sayına görə təşkil etdiyi faizə deyilir. UNESCO Statistika İnstitutundan aşağıda gətirəcəyimiz rəqəmlər əsasən 2004-cü ilə aiddir.

İqtisadi, elmi və texnoloji gücünə görə dünyanın ən qabaqcıl ölkələr qrupu - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) ölkələri (ingiliscə: OECD) təhsildə ümumi iştirak dərəcəsinə görə də dünyada birincidir (bura 31 ölkə daxildir: Birləşməş Ştatlar, Kanada və Meksika, Yaponiya və Cənubi Koreya, Avstraliya və Yeni Zelandiya, 23 inkişaf etmiş Avropa ölkəsi və Türkiyə). Bu qrupun ali və natamam-ali təhsildə ümumi iştirak dərəcəsi orta hesabla 71.2 faizdir. Burada da liderlər var; Finlandiya – ümumi iştirak dərəcəsi 89.5%, İsveç – 83.7%, Birləşmiş

Ştatlar –82.4%, Norveç –80.5%. Koreya Respublikası –88.5%. Bəzi böyük ölkələrə də nəzər salaq: Fransa – 56, İtaliya – 63.1, Yaponiya –54, İspaniya – 65.7, Böyük Britaniya –60.1, ...

Ümumi iştirak dərəcəsinə görə ortalama 49.8%-lə Şərqi Avropa və Müstəqil dövlətlər birliyi ikinci yerdədir. Şərqi Avropa və keçmiş Sovetlərdə cəmiyyət geniş təhsil, elm, mədəniyyət ocaqları şəbəkəsinə malik olub. Keçid iqtisadiyyatında olan bu ölkələr 1990-95-ci illərdə iqtisadi və siyasi çətinliklərlə üz-üzə qalsalar da, onların çoxu bir sıra keyfiyyət və kəmiyyət göstəricilərini bərpa etməyə, hətta yaxşılaşdırmağa nail oldular. Sosialism dövrünə xas olan təhsil və elm ənənələri bu çətinlikləri aşmağa böyük kömək oldu. Misallara (ali təhsildə uyğun iştirak dərəcəsinə) nəzər salmaq kifayətdir: Belarus –60.5%, Estoniya –65.1, Macarıstan –59.6, Latvia –74,3, Litva –73.2, Polşa –61, Rusiya –68.2, Ukrayna –65.5. Bu qrupa daxil olan digər ölkələrin mühüm qismində (Bolqarıstan, Çex Respublikası, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Rumıniya,...) uyğun iştirak dərəcəsi 40 – 50% ətrafındadır. Bu qrupun geri qalanları kimlərdir? Ermənistan – 26.2%, Tacikistan –16.4%, Türkmənistan (təqribən 20-21%), və Özbəkistan (təqribən 15-16%). Azərbaycan sonuncu yerdədir –14.8%. Ölkəmizdə hətta

mütləq say etibarilə də azalma baş verib - 1991-ci ildə 163901(23, 6%), 2004-də isə 122770 (14.8%) (?!) *Əhalimiz isə həmin dövrdə xeyli, təxminən bir milyon yüz yetmiş min artıb...*

Dinamika baxımından bütün ölkələrdə bu göstəricilər ilbəil artır - böyük qismində sürətlə, digər qismində az-az. Azərbaycanın bu göstəriciləri ildən-ilə azalıb: 1990-da 23.9%, 1995-də 18%, 2000-də 16.3 %, 2004-də 14.8% (2005-də 14.7%). Azərbaycan, orta göstəricisi 27.5% olan Latın Amerikası, 22.7% olan Yaxın Şərq və Şimali Afrika, 19.4 % olan Şərqi Asiya və Sakit Okean bölgəsindən də geri qalır. Onu da qeyd edək ki, 1999-2005-ci illər ərzində Bologna prosesinə qoşulan Avropa təhsil və elm nazirləri bütün imkanları səfərbər edib hamının ali təhsil almasına imkan yaratmağı öhdələrinə götürdülər. Nəticə etibarilə 46 Avropa ölkəsindən 45-də ali təhsildə iştirak faizi artdı, təəssüf ki, istisna ölkə Azərbaycandır.

Beş sərhəddyanı qonşumuzda bu işlərin necə getməsi, təbii ki, xüsusi maraq doğurur. Yüksək təhsildə iştiraka görə regional yarışda 1990-da Rusiya 1-ci, Gürcüstan 2-ci, Azərbaycan 3-cü, Ermənistan 4-cü, Türkiyə 5-ci və İran axırıncı-6-cı yerdə idi. İndi isə vəziyyət belədir: Rusiya yenə 1-cidir (68.2%), Gürcüstan ikinciliyi qoruya bilib (41.5%),

Türkiyə 5-ci yerdən 3-ə yüksəldi (29%), Ermənistan yenə 4-cü yerdədir (26.2%), İran (22.5%) axırıncı yeri tərk edib onu Azərbaycana (14.8%) təhvil verdi.

Ali təhsildə iştirak səviyyəsini artırmaq inkişaf etməkdə olan ölkələrin qarşısına qoyduğu və hal-hazırda həll etməyə çalışdığı ən əsas məsələlərdən biridir. Bəzi ölkələr bu işdə dramatik irəliləyişə nail olublar.

1999-cu ildə ictimaiyyətin təzyiqi altında Çin hökuməti əvvəlki ilə nisbətdə tələbə sayını 48% artırmağa məcbur oldu! 2002-ci il Çində ali təhsilin kütləviləşməsinin başlanğıcı elan edildi; 1999 illə müqayisədə 2004-də tələbə qəbulu 226, 6% artdı! (The Chronicle of Higher Education, February 2, 2007). Bu sanballı siyasətin nəticəsi olaraq 2007-ci ildə hər üç pillədə cəmi ali məktəb məzunlarının sayına görə ABŞ ilk dəfə birinci yeri tərk etdi, Çin irəli çıxdı!

Ali təhsildə iştirak dərəcəsi 29% olan Misirdə ali təhsillilərin sayının mühüm dərəcədə artırılması zəruriliyi cəmiyyətin və dövlətin əsas qayğı və başağrılarından birinə çevrilib.

Onu da qeyd edək ki, Azərbaycan iqtisadi artım sürətinə görə bu ölkələrin hamısından (və digər cəmi ölkələrdən!) xeyli irəlidədir.

İqtisadi inkişafa görə müxtəlif pillələrdə duran

ölkələrdə orta məktəb məzunlarının həmin il ali məktəblərə daxil olma dərəcəsinə baxmaq da maraqlıdır. Azərbaycanın bu mənada da göstəricisi çox aşağıdır (15.9%).

## Ali təhsilimiz niyə kifayət qədər əlyetən deyil?

Dünyada ali təhsilin əlyetən olması üçün hansı yollara baş vurublar?

Yaponiyada dövlət universitələri çox olsa da tələbələrin əksəriyyəti özəl universitələrdə oxuyurlar. Ali təhsilin kütləviləşdirilməsi məsələsini Yaponiya əsasən bu yolla həll edə bildi (ali təhsilə daxil olma dərəcəsi artıq 74 faizi keçdi!). Cənubi Koreyada 1990-cı ildə orta məktəb məzunlarının 33,2 faizi, 2004-cü ildə isə 81 faizi ali məktəblərə daxil olmuşdu! (Nam Pyo Suh-2008). Üstəlik Koreya xaricdə təhsil almağa ən çox tələbə göndərən ölkələrdən biridir (2006-7-ci dərs ilində Birləşmiş Ştatlara 62,392 tələbə göndərmişdi- yalnız Hindistan və Çindən az). Sinqapurda bu daxil olma faizi 70-dən çoxdur. Braziliyada tələbələrin 73 faizi özəl ali

məktəblərdə təhsil alırlar, 2165 ali məktəbdən 231-i dövlət ali məktəbidir (yalnız 176 universitə var, onlardan da 86-sı özəldir) (Carlos H.Brito Cruz-2008).

Orta təhsildən sonrakı təhsilin problemlərini artıran amillərdən biri peşə-sənət məktəblərinin tənəzzülü və yaxın keçmişdə texnikum adlanmış, hal-hazırda önbakalavr və ya kiçik mütəxəssis dərəcəsi verən kolleclərin çox hissəsinin cazibədar olmamasıdır. Texnikum-colleclər üçün Birləşmiş Ştatlardakı Community College (İcma kolleci) sisteminə bənzər şəbəkə qurulmayıb, yəni ikiillik kollec tələbələrinin ali məktəbə keçid imkanı yoxdur; bu isə həm önbakalavr dərəcəsi verən təhsil ocaqlarının, həm onların tələbələrinin inkişaf həvəsini və imkanını azaldır. 2004-cü ildə Birləşmiş Ştatlarda birinci il tələbələrinin təqribən 38%-i İcma kolleclərində oxuyurdular. Azərbaycanda özəl və bəzi dövlət ali məktəblərini bu cür iki llik kolleclər yaratmağa həvəsləndirmək bir sıra məsələlərin həllinə kömək olardı.

Azərbaycanda yalnız dövlət universitələrinə deyil, özəl universitələrə də hər il hər ixtisas üzrə nə qədər tələbə qəbul ediləcəyini hökumət müəyyən edir. Özəl ali məktəbin uzun illər sərmayə qoyduğu və yüksək keyfiyyətə nail olduğu ixtisaslar üzrə tələbə qəbulu birdən-birə qadağan edilə bilər (?!).

Qeyd edək ki, ölkəmizdə kəskin azaldılmış qəbul planı belə yerinə yetirilmir və qəbul imtahanlarında daha yüksək nəticələr əldə etmiş minlərlə (?) ərizəçi kənarda qalır, daha aşağı nəticə göstərmiş minlərlə ərizəçi isə ali məktəbə qəbul olunur; bunlara səbəb qəbul siyasətinin ifrat dərəcədə mərkəzləşdirilməsidir.

Ali təhsilin əlyetən olması məsələsində ölkəmizdə yaranmış açıq-aşkar geriliyin səbəbi nədir?

1. Bəlkə ali məktəblərin sayı azdır və ya tələbə oxutma potensialı zəifdir? Hal-hazırda xeyli (34 dövlət və 15 özəl) ali məktəbimiz var və onların bəziləri bu gün olduğundan daha çox tələbə oxutmaq imkanına malikdir.

2. Bəlkə təhsil xərcləri artdığı üçün hökumət tələbə qəbulunu azaldır? Doğrudan da, dövlət ali məktəblərinin maliyyələşdirilməsi əsasən dövlətin üzərinə düşür. Lakin dövlət ali məktəblərinə ödənişli qəbul hal-hazırda ümumi qəbulun yarısından çoxunu təşkil edir. Digər tərəfdən isə, özəl ali məktəblərin daha çox tələbə qəbul etməsi dövlətin xərclərini heç cür artırmır. Tam əksinə, bu, dövlətin öz xərclərini daha effektiv və optimal şəkildə planlamasına kömək edərdi.

3. Bəlkə ali məktəblərdə təhsilin keyfiyyəti, məzmun və forması hökumətii qane etmir? Doğru-

dan da, Azərbaycanda ali təhsilin keyfiyyəti, ümumiyyətlə desək, yüksək deyil. Təəssüf ki, tələbənin biliyinin qiymətləndirilməsində təhsilin birinci düşməni olan rüşvət və "tapşırıq" hələ də səhnədə öz rolunu oynayır. Ali məktəbə daxil olan tələbələrin demək olar ki, hamısı dəqiq vaxtında məzun olur, zəif oxuyan da, heç oxumayan da, dərsə gələn də, gəlməyən də...Lakin korrupsiyadan azad, ölkədə və ölkə sərhədlərindən uzaqlarda nüfuz qazanmış, məzmun və forma cəhətdən nümunəvi ali məktəblərimiz də mövcuddur. Dövlət tərəfindən məhz onların tələbə qəbulu planlarının azaldılması isə günümüzün ən böyük paradokslarından biridir. Dünya təhsil təcrübəsinə görə dövlət keyfiyyətli təhsil verən ali məktəblərə "daha çox tələbə qəbul edin" deyə müraciət edir, bu iş üçün onlara kömək də edir (məsələn, tələbələrin bir qisminə təhsil haqqını ödəməklə, digərlərinə çox güzəştli borc verməklə, ali məktəbə isə tələbə şəhərciyi qurmaq üçün geniş ərazi bağışlamaqla...).

4. Bəlkə qəbul imtahanlarında iştirak edənlərin imtahan nəticələri aşağıdır və təhsilin keyfiyyətini artırmaq üçün daha az sayda tələbə qəbulu zəruridir? Bu fikir, ilk nəzərdən əsaslı görünsə də, doğru deyil. Birinci, yalnız ildə bir dəfə və bir neçə saat ərzində keçirilən imtahan biliyi, qabiliyyəti və mo-

tivasiyanı tam ölçmək üçün kafi deyil. İkinci, tələbəliyə namizəd olanların ali məktəblərə göndərilmə prinsiplərində, yuxarıda qeyd etdiyimiz kimi, səhvlər mövcuddur (bu ildən başlayaraq müəyyən dəyişikliklərin olacağı gözlənilir...). Bir misal olaraq, 2006-cı il qəbul nəticələrinə görə "yaxşı və əla" qiymətlər alanların sayına nəzər salaq: 29.859 (bu qiymətləndirmə və rəqəm Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına məxsusdur). Başqa sözlə desək, ali məktəblərimizə 29.859 "qorxusuz" tələbə qəbul etmək olardı, qəbul planı isə, yuxarıda göstərdiyimiz kimi, 22.479 olmuşdur və o da tam yerinə yetirilməmişdir.

Əlbəttə ki, hökumət məsulları işi qəsdən, bilə-bilə dolaşdırmır, dövlətin belə marağı ola bilməz. Ölkədə vəziyyətin müəyyən səviyyədə sabitləşməsini, hadisələrin rəvan axınını təmin etmək vəzifəsi məhz hökumətin üzərinə düşdüyü üçün onun bir sıra məsələlərdə bir qədər mühafizəkarlıq etməsi də təbiidir (kənarda dayanıb hökuməti tənqid edən şəxs hakimiyyətə gəlsə, o, öz inqilabi ideyalarının ən azı bir qismindən əl çəkməli olur, məsləhətləşmə, razılaşma, kompromislərlə işləməli olduğunu başa düşür). Təmiz, keyfiyyətli təhsil verən ali məktəblərimizin sayı artdıqca, yəqin ki, ali təhsilin əlyetən olması siyasətində hökumət daha çox iş gö-

rə biləcək. Əlbəttə ki, oturub gözləmək yox, yaxşılara kömək etməklə, onları həvəsləndirməklə digərlərinə "siz də yaxşı olun, sizə də kömək edək" ismarıcını yollamaq lazımdır. Hökumətlərin korrupsiya ilə mübarizə siyasətində yaxşı sınaqdan keçmiş bir üsul var – "satın alınması mümkün olmayan adaları ("islands not for sale"), yəni çox təmiz, rüşvətsiz qurumları qorumaq, qanadı altına almaq, onların inkişafına çalışmaq. Dünya təcrübəsi də belədir, işin xeyri də bunu tələb edir.

Ali təhsil tək gənclər üçün deyil. Ayrı-ayrı fərdlərin, qurumların və bütövlükdə cəmiyyətin davamlı, durmadan inkişafı ömür boyu gedən (ingiliscə - LLL, Life Long Learning deyilən) təhsil və təlimə əsaslanır. Həyat səviyyəsi yüksək olan ölkələrdə orta həyat (yaşam) müddəti artdıqca cəmiyyətdə yaşlıların xüsusi çəkisi artır, təqaüdə çıxma yaşı yuxarıya doğru sürüşür. İşini və peşəsini dəyişmək istəyən, nəsə yeni bir şey öyrənmək istəyən insanların sayı yaşlıların hesabına artır. Bu, ömür boyu təhsil konsepsiyasını daha da gücləndirir, ali təhsilin hər yaşda insan üçün əlyetən olmasını tələb edir.

Dövlət Təhsil İslahatları Proqramı ali təhsilin əlyetən olması kimi fundamental məsələnin həllini də özündə ehtiva etməlidir!

## Ali təhsildə keyfiyyət kimlər tərəfindən və necə ölçülür?

Təhsil islahatlarının əsas məqsədi ciddi təhsil konsepsiyası hazırlamaq və onu həyata keçirməklə təhsili daha keyfiyyətli etməkdir. Keçid iqtisadiyyatında olan və yeni dövlət müstəqilliyi qazanmış ölkələrdə isə təhsil konsepsiyası bütövlükdə yenidən işlənilir, təhsildə islahat və yenidənqurma geniş müzakirə olunur. Bu zaman fikirlər haçalaşır və hökumət, adətən, vəziyyəti strateji baxımdan deyil, taktiki addımlarla nəzarətdə saxlayır.

Ali məktəblərdə keyfiyyəti kimlər ölçür və nə üçün ölçür? Bu vəzifəni üzərinə götürmək istəyən üç namizəd göz qabağındadır: təhsil müəssisəsinin özü, hökumət və bir də müstəqil və səlahiyyətli akkreditasiya agentlikləri. Azərbaycanda ali məktəblərin ciddi proqram üzrə daxili dəyərləndirmə ilə

məşğul olduqları barədə eşitməmişəm. Xəzər universitetində tələbələrin də fəal iştirakı ilə, dövri olaraq daxili dəyərləndirmələr aparıldığı və nəticələrin kağız və elektron nəşrlər vasitəsi ilə rəsmi elan olunduğu yaxşı məlumdur (bütöv ölkə üçün, təbii ki, bu çox azdır). Təhsil ocağının özdəyərləndirməsindən sonra xarici dəyərləndirmənin tam müstəqil olan səlahiyyətli akkreditasiya qurumları tərəfindən aparılması təcrübədə ən çox rast gəlinən və ən məqsədəuyğun haldır. Akkreditasiya edən qurum ali məktəbdə vəziyyət haqqında peşəkar fikir yürütməklə yanaşı keyfiyyətin artırılması yolları barədə tövsiyələr də verməlidir.

Akkreditasiyanın vətəni olan Amerikanın zəngin təcrübəsi göstərir ki, dövlətin akkreditasiyada birbaşa iştirakına ehtiyac yoxdur, dövlətin müdaxiləsi ancaq zərər verə bilir, keyfiyyəti ölçmək sahəsində dövlətin monopoliya yaratmaq cəhdi məsələnin ən pis həllidir.

Dünyada keyfiyyətin qiymətləndirilməsi agenti olaraq fəaliyyət göstərən akkreditasiya komissiyaları keçid dövründə olan ölkələrdə tez-tez tabeçiliyini dəyişdirir, yeni-yeni komissiyalar təşkil olunur, onların məqsəd və vəzifələri tam aydın olmamaqla yanaşı, qəbul etdiyi qərarlar da uzunömürlü olmur. Bu akkreditasiya komissiyaları inkişaf etmiş ölkə-

lərdə olduğu kimi hərəkət etmirlər. Onlar yoxlama nəticəsində bəyənib-bəyənməmək, bəyənmədikdə zəif cəhətlərin aradan qaldırılması yollarını göstərmək və bu yolu keçmək üçün müəyyən vaxt ayırmaq kimi təbii qərarlar qəbul etmək iqtidarında olmurlar. Akkreditasiyaların nəticəsi olaraq maliyyələşdirmə və digər sahələrdə üstünlüklərin verilib-verilməməsi deyil, yalnız “ölüm ya olum?” - təhsil ocağının və ya fakültələrin bağlanıb-bağlanmaması məsələsi qoyulur. Aşağıdakı misal tam yerinə düşməsə də, tam yersiz deyil. Əsl müharibə zamanı belə düşmənlə üz-üzə gələrkən onu öldürmür, ”dayan, əllər yuxarı!” deyir, əsir almağa çalışırlar. Ali məktəbdə illərlə inkişaf etdirilən sahənin bir anda məhv edilməsi əslində heç bir ciddi akkreditasiyanın nəticəsinə əsaslanmır, sadəcə qəti, qedsiz-şərtsiz bit hökmün nəticəsidir. Keçid dövrünə xas olan “kənardan tapşırıqlar” və akkreditasiya ətrafı korrupsiya ehtimalı da məsələni qatılaşdırır.

Yalnız hökumətdən və hər hansı digər böyük qurumdan asılı olmayan müstəqil ictimai akkreditasiya agentliklərinin, eləcə də müxtəlif elm-sənət sahələri üzrə peşəkar assosiasiyaların birgə işinin yaxşı nəticə vermək ehtimalı var. Bu komissiyalarda uyğun beynəlxalq qurumların və ya xarici mütəxəssislərin, xaricdə təhsil almış mütəxəssislər və onla-

rın assosiasiyalarının iştirakı da müsbət rol oynaya bilər. Digər tərəfdən, bəzi qonşu ölkələrlə birgə fəaliyyətə əsaslanan regional akkreditasiya agentliklərinin, eləcə də Avropa akkreditasiya qurumlarının xidmətindən istifadə edilməsi mümkündür. Bologna Prosesi ümumavropa akkreditasiya agentliklərinin yaradılması və Avropa təhsil məkanında fəaliyyət göstərən hər hansı ali məktəbin akkreditasiya üçün bu agentliklərin birinə müraciət edə bilmək hüququnu da nəzərdə tutur (bu proses – akkreditasiya agentliklərinin Avropada qeydiyyatı 2008-ci il aprel ayında başlanılır!).

Təhsil müəssisəsinin yaradılması və ona lisenziya, yəni təhsillə məşğul olmaq üçün birdəfəlik icazə verilməsi isə Milli Məclis, Təhsil Nazirliyi və ya Azərbaycan Prezidenti yanında Təhsil Komissiyası kimi dövlətlə bağlı bir qurumun işi ola bilər.

Keyfiyyətin tərəfsiz ölçülməsi və artırılması yollarını göstərən *akkreditasiyanın əsas nəticəsi* əsasən dövlətin ali məktəbə yardımı, o cümlədən maliyyə yardımı siyasətinin düzgün müəyyən edilməsi olmalıdır. Dövlət ali məktəbləri üçün dövlət büdcəsindən birbaşa maliyyələşmənin olub-olmayacağı və olacağı halda onun kateqoriyası (yüksək, orta və s.) müəyyənləşdirilə bilər. Özəl ali məktəb halında isə onun dövlətdən böyük güzəştlə kredit və borc

almaq hüququ təmin oluna bilər. Uğurlu akkreditasiyanın əsas nəticəsi, həmçinin həmin özəl ali məktəb tələbələrinə təhsil haqqını dövlətdən almaq və ya çox böyük güzəştlə dövlətdən borc almaq hüququ verilməsidir. Əlbəttə həm dövlət, həm özəl ali məktəblər uğurlu akkreditasiya nəticəsində digər formada da yardımlar ala bilərlər. Akkreditasiya bu və ya digər proqramların (ixtisas sahələrinin) zəif olduğunu aşkar etdikdə isə ali məktəb o proqramın inkişafı üçün və uyğun tələbələr də təhsil haqqı üçün dövlətdən heç nə tələb edə bilməyəcəklər.

Dövlət ali məktəblərinin hökumət (məsələn, təhsil nazirliyi) tərəfindən aparılan akkreditasiyası çox formal xarakter daşıyır, düzünə qalanda heç bir ciddi akkreditasiya aparılmır. Əslində isə dövlət öz büdcəsindən ayırmaların məqsədəuyğun və effektiv istifadəsi ilə birinci növbədə maraqlanmalı və bu sahədə əsas akkreditasiya vasitəsilə müəyyənləşdirməlidir.

Ali məktəbin nüfuzu incə və mürəkkəb məsələdir. Içtimai rəy ali məktəb haqqında ortalama fikir və obraz formalaşdırır, bu zaman ali məktəbin bir sıra güclü və zəif tərəfləri ümumi orta obrazın kölgəsində qala bilir. Təftiş edən mütəxəssislər qrupunun təcrübəsi, sahənin incəliklərinə bələd olması və kənar təsirlərə uymaması dəyərləndirmədə mümkün

ola biləcək subyektivliyi azaldır.

Ali məktəbdə keyfiyyəti təminatı kimlərdən və nələrdən asılıdır? Şübhəsiz ki, öyrənənlər və öyrədənlər çox mühümdür. Digər mühüm bir cəhət isə öyrənənlərlə öyrədənlərin fəaliyyət göstərdiyi şərait və mühit, yəni ali məktəbdəki mənəvi mühit, idarəetmə və maddi – texniki qaynaqlardır. Və nəhayət, tədrisin əsasında dayanan ideya və proqramlar, yəni müasir və dinamik təhsil modeli, proqram və tədris planları çox mühümdür.

Ali məktəbin səviyyəsini ölçə bilən konkret göstəricilər (indikatorlar, standartlar) həm ali məktəbə tələbə qəbulunu, yəni başlanğıc şərtləri, həm təhsil prosesini, həm də təhsilin nəticəsini, məhsulunu ölçməyə yönəlib. Keyfiyyət analizində giriş, yol (və ya proses) və çıxışdan ibarət olan üç amili birlikdə araşdırmaq zəruridir.

Qarşıya qoyulan məqsəddən, dəyərləndirməyə ayrılan vaxt və s. amillərdən asılı olaraq standartlar daha geniş və ya xüsusi təyinatlı ola bilər. Onlar ali məktəbin ümumilikdə və ya seçilmiş sahələrdə gücünü, kamilliyini ölçməyə yönəlir.

## Ali təhsil sistemində idarəetmə

Ali təhsil sistemimizdə tənzimləmə və mərkəzi idarəetmə çox geniş yayılmış, çox bürokratik şəkil almış, daha dərinlərdə dayanan əsl planlama işi isə çox geridə qalmışdır. Dövlət bölməsində muxtariyyət zəif, özəl bölmədə isə müstəqillik yox dərəcəsindədir. Məsələ heç də kənardan göründüyü kimi sadə deyil. Ali məktəblər müstəqillik və ya muxtariyyət üçün zəruri olan addımları ata bilmir, keyfiyyət əldə etmək naminə çalışmır, hökumət də öz səlist siyasətini elan edə bilmir, əvəzində cilovları əlində saxlayır. Ali məktəblərin müstəqilliyinə yalnız onların məsuliyyəti və səviyyəsi ilə yanaşı, hərəkətlərindəki şəffaflıqla birgə baxılmalıdır. Dövlətin ali təhsil siyasətində "hər ali məktəbə onun layiq olduğu müstəqillik və kömək" düsturu əsas bələdçi rolunu oynaya bilər.

Keyfiyyətin ölçülməsində və mükafatlandırılmasında isə dövlətlə ali məktəblər arasında təzimləyici orqanların, məsələn akkreditasiya agentlikləri və elmi-tədqiqat fondlarının iştirakı vacibdir.

Hökumətin ali məktəblərə ortalama qərarlar tətbiq etməsi, yaxşılarla zəiflər arasında ciddi fərqlər qoymaması işə xələl gətirir.

Mümkündür ki, bəzi ali məktəblərə kənara çəkilmək, xüsusi gizli işlər görmək imkanı verməmək üçün dəvlət bütün ali məktəbləri eyni məngənədə saxlamağa çalışır, lakin bu bərabərləşdirmə siyasəti təhsilin inkişafına ciddi mane olur. Bu siyasət irəliyə gedəni ürəkləndirmir, geridə qalanın isə xətrinə dəymir.

Dünyadakı müsbət, dəyişən meyyləri izləmək, tətbiq etmək, manevr edə bilmək, yaradıcı fikir və gücdən tam istifadə etmək, beynəlxalq əməkdaşlıq vasitəsi ilə yeni məzmun, forma və keyfiyyətə nail olmaq imkanı verir muxtariyyət. Ayaqlarından daş asılmış və ya qolu bağlanmış ən yaxşı rəqqasdan da yaxşı rəqs etməyi, beynəlxalq yarışda uğur qazanmağı gözləmək mənasızdır.

Mütəxəssislər dövlətin ali məktəblərə muxtariyyət verməsi ilə onun, ümumiyyətlə, muxtariyyətə, azad fikrə münasibəti arasında yaxınlıq olduğunu iddia edirlər.

1990-cı illərdən başlayaraq inkişaf etmiş dövlətlər ali məktəblərin muxtariyyətini xeyli artırdılar.

Öz ali məktəblərininin səviyyəsini yüksəltməyə çalışan dövlətlər ölkə daxilində yarış mühiti yaratmağa çalışır, dünya miqyasında gedən rəqabətdə uğur qazanılması üçün bir sıra zəruri addımlar atır. Ümumiyyətlə, yuxarıdan sərt inzibati idarəetmənin tətbiqi keyfiyyətin artırılması üzərində ciddi çalışan (yəni yaxşı) ali məktəbin dinamik inkişafına mane olur, onun dəyişən mühitin tələblərinə çevik cavab verməsinə, öz rəqabət gücünü artırmasına imkan vermir.

Təhsil və mədəniyyət üzrə Avropa Komissarı (Commissioner) Jan Figel 2006-cı il Oxford Universitetində konfransda dediyi sözlər maraqlıdır: “Nazirlər öz vaxtlarını nəzarəti gücləndirməyə sərf etməklə hansı sahədə nə iş görməyi elm adamlarından daha düzgün tapmağa çalışırlarsa, mən universitetlərimizin çox yaxşı işlər görəcəyinə heç ümid bəsləmirəm”.

Əlbəttə ki, ali məktəbin müstəqilliyi ilə bəzi dövlət maraqları toqquşursa məsələyə diqqətlə yanaşılmalı, maliyyə qaynaqları vasitəsilə bu maraqlar qorunmalıdır. Məsələn, tələbə qəbulunda bəzi hallarda biliyə görə deyil, başqa səbəblərə görə, müəyyən zəif qrupların ehtiyaclarını ödəmək, onların inkişafını tə-

min etmək naminə hərəkət edilməsi mümkündür.

Azərbaycanda ali məktəblərin daxili idarə edilməsi işi də mükəmməllikdən çox uzaqdır. Ali məktəbi rektoru ağadır, tək hakimdir, korporativ idarəetmə yox dərəcəsindədir. Digər tərəfdən isə rektorların təyin olunması və ya işdən azad edilməsi bir an içində baş verir. Doğru olanı hər ali məktəbin himayəçilər şurasının yaradılması və ali idarəetmənin bu şuraya verilməsidir. Şura üzvləri elm və sənət adamları, işadamları, ali məktəbin məşhur məzunları və dövlət təhsil ocaqları halında bəzi hökumət üzvləri arasından təyin oluna bilər. Bu Şura rektor axtarışı elan edir, məsələni tələsmədən, çox diqqətlə həll etməyə çalışır. Amerikada və digər inkişaf etmiş ölkələrdə yaxşı ali məktəbə rektor axtarışı bir il çəkə bilər!

Ali məktəbin digər mühüm məsələləri də, o cümlədən strateji inkişaf planı, yaxın illər üçün nəzərdə tutulmuş fəaliyyət planı, yüksək vəzifələrə təyinat, maliyyə qaynaqlarının axtarılması himayəçilər şurası tərəfindən yönləndirilir. Cari idarəetmə işi isə rektora və onun ətrafındakı yüksək vəzifəlilərə həvalə edilir. Bu cür idarəetmə məsuliyyətsiz addımlar atmağa, şəxsi maraqların ümumi maraqları üstələməsinə imkan vermir, hər kəs öz yerini və öz hüquqlarını bilir. Nəzarəti əsas iş hesab edən

hökumət də əslində öz işini daha etibarlı görür, bir tərəfdən öz ali məktəblərini bu qayda ilə nəzarətdə saxlayır, digər tərəfdən isə onlara məsuliyyətli və ya müstəqilliyə yaxın muxtariyyət verir.

Yaxşı özəl ali məktəbə inkişaf etmiş ölkələrdəki-nə bənzər tam müstəqillik verilməsi ölkəmizdə yüksək səviyyəli ali məktəbin yetişməsi üçün ən gerçək və təbii yoldur. Tələbə qəbulu siyasətində, hansı ixtisaslar üzrə kadr hazırlığı aparılması məsələsində, bütün səviyyələrdə öz diplomlarını vermək hüququna malik olmaqda müstəqillik yaxşı özəl ali məktəbin sürətli inkişafına həlledici təsir edərdi. Əlbəttə ki, dövlət həmin ali məktəbin hansı sahə üzrə kadr hazırlığına maliyyə köməyi göstərib-göstərməyəcəyini özü qərarlaşdırır. Həmçinin, müstəqillik verilmiş ali məktəbin nüfuzlu beynəlxalq akkreditasiyalardan keçməsi də onun qarşısında şərt kimi qoyula bilər. Özü-özünə cox ciddi, hətta amansız nəzarət edən, keyfiyyəti öz varlığı ilə eyniləşdirən, beynəlxalq aləmdə nüfuz qazanmaqda olan özəl ali məktəbə “buyur, öz işinlə məşğul ol, sərbəstsən” deməyin ziyanı varmı? Heç bir ziyan görünmür, xeyir isə şübhə doğurmur və bu, ən azı bir daha bir yaxşı dünya təcrübəsini ölkəmizdə sınaqdan keçirməyə, gələcəyimizi modelləşdirməyə xidmət edərdi...

Ümumiyyətlə, ölkədə ali təhsil sisteminin gücü onun rəngbərəngliyində, məqsəd və hədəflərin fərqliliyində, inkişaf yollarının müxtəlifliyində və ali məktəblərin müstəqilliyindədir. “Amerika ali təhsil sisteminin gücü onun sistem olmamasıdır!” (The Economist, 2005, 10 September). Burada sistem olmamaq və ya bu mənada sistemsizlik ali məktəbin inkişaf ideyası, hərəkət və forma seçimində sərbəstliyi deməkdir.

Dünya təcrübəsindən ali məktəblərin dövlətlə münasibəti məsələsinə aid çoxsaylı ibrətamiz misallar gətirmək olar. Əsas məqsədimizdən uzaq düşməmək naminə biri ilə kifayətlənək - Cənubi Koreyada dövlət Koreya Yüksək Elm və Texnologiya İnstituna (Korean Advanced İnstitute of Science and Technology) o dərəcədə kömək edir və o dərəcədə tam müstəqillik verib ki, Massaçusets Texnologiya İnstitutu (MİT) kimi nəhənglə yarışa girə bilsin.

Monopoliyanın aradan qaldırılması, xüsusilə müxtəlif “qiymətli” ixtisaslar (hüquq, tibb, beynəlxalq münasibətlər,)... üzrə tələbə qəbulunda dövlət universitərinin xeyrinə süni monopoliya yaradılması ali təhsilimizin keyfiyyətinə ən çox zərər vuran səbəblərdən biridir. Dövlətin təhlükəsizliyi üzrə kadr hazırlığı istisna olunmaqla digət bütün sahələr-

də dövlət və özəl ali məktəblərin, mərkəzdə və bölgələrdə fəaliyyət göstərən ali məktəblərin eyni ixtisaslar üzrə mütəxəssis hazırlaması müqayisələr aparmağa, rəqabət yolu ilə keyfiyyətə nail olmağa imkan verir. Rəqabətin əsas gücə çevrildiyi sistemdə ali məktəbin nə ilə məşğul olacağını ali məktəb özü müəyyən etməli, maliyyələşmə (həm dövlət tərəfindən, həm də digər qaynaqlardan) isə ali məktəbin haqlı nüfuzuna, işinə görə verilir, daha doğrusu ali məktəb tərəfindən əldə edilir. Ən yaxşı nəzarət, mükafat və cəzalandırma düzgün maliyyələşdirmə siyasəti üzərində qurulmalıdır.

İdarəetmə və keyfiyyətin artırılması işində tələbələrin iştirakı zəruridir. Bunun sözdə deyil, işdə həyata keçirilməsi yolları da mövcuddur.

## Ali təhsildə qeyri-akademik xidmət

Ali məktəbdə təhsilin keyfiyyəti və onun qiymətləndirilməsi, ciddi və çevik idarəetmə sisteminin qurulması kimi mühüm işlərə təhsil nazirliyi və ya digər əlaqədar hökumət qurumları deyil, birinci növbədə ali məktəbin özü nəzarət etməli, bu işlərin də tədris və tədqiqat kimi çox vacib olduğunu dərk etməli, uyğun mexanizmləri işləyib hazırlamalıdır. Ali təhsildə keyfiyyətin artırılması mərkəzinin, tədris plan və proqramları, tələbənin biliyinin qiymətləndirilməsi, elektron təlim üsulları, ömürboyu təhsil və məsafədən təhsil konsepsiyalarını hazırlayıb həyata keçirən mərkəzlərin fəaliyyəti çox mühümdür. Öz tələbələrinə tədrisdən kənar, yəni qeyri-akademik, insani xidmət sistemi qurmadan ali məktəb yaxşı inkişaf edə bilməz.

Ali məktəb-öyrətmək və öyrənmək məqsədi ət-

rafında birləşmiş insanların yaşadığı bir məkandır, yaşayış məntəqəsidir, şəhərcikdir. Bu şəhərin yaşaması üçün uyğun inzibatçılığın və idarəçiliyin, təsərrüfat həyatının və xidmət sektorunun qurulması zəruridir. Ali məktəbin əsas əhalisi tələbələrdir. Ali məktəbin tipindən, yerləşdiyi ölkədən, böyük-kiçikliyindən asılı olaraq tələbələrin sayı müəllim və idarəetmə-xidmət bölməsində çalışanların ümumi sayından 10-15 dəfə çox olur. Ali məktəb qocaman olsa belə həmişəcavandır, sakinlərinin əksəriyyəti həyat təcrübəsi az olan gənclərdir, oxumaq-öyrənməklə yanaşı onların hər cür qayğıya və yardıma ehtiyacı var.

Yaxşı ali məktəb elmi araşdırmalarla, müasir və keyfiyyətli tədrislə yanaşı tələbələrə dayaq duran, onlara hər cəhətdən kömək edə bilən xidmət sistemi ilə də seçilir. Üstəlik müasir ali təhsil keçmişdəkindən qat-qat rəngbərəngdir – daha çox seçmə fənlər, daha çox ixtisaslar, tələbələrin fərdi tələblərini nəzərdə tutan yeni tədris modelləri və üsulları, daha beynəlmiləl tələbə tərkibi, informasiya-kommunikasiya texnologiyalarından daha geniş istifadə... Bu və digər xüsusiyyətlər müasir ali məktəbdə tələbələrə xidmətin də qat-qat ciddi və rəngbərəng olmasını zəruriyyətə çevirir. Bu məsələlərin vaxtında və uyğun şəkildə həll edilməsi üçün xüsusi ixtisaslaş-

mış işçi-mütəxəssislər qrupu fəaliyyət göstərməlidir.

Tələbə mərkəzli təhsil modeli tələbələrlə işin fəal işin qurulmasını tələb edir. Tələbələrin bir qrup şəklində müəllimin ətrafında birləşməsi (müəllim mərkəzli sistem) deyil, hər bir tələbənin marağının ayrı-ayrılıqda təmin edilməsi, müəllimin tələbələrlə yanaşı çalışaraq onları sadəcə yönəltməsi ön plana çəkilir. Müəllim rəhbər deyil, son söz sahibi olan böyük şəxs deyil, o təcrübəli ustadır, məşqçidir. Kredit yığma (qazanma) əsasında qurulan təhsil modeli məhz tələbə mərkəzli sistemdir, bu sistemdə hər tələbənin yalnız özünə məxsus irəliləmə trayektoriyası olur.

Ali məktəbin tələbələrlə ilk təması onların ali məktəbə qəbulu ərəfəsində baş verir. Ali məktəblər şəbəkəsi bütövlükdə götürüldükdə tələbə olmaq istəyənlərin hamısının arzusunu yerinə yetirə bilmir. Hətta yüksək inkişaf etmiş ölkələrdə də ali təhsil almaq arzusunda olan, amma gerçəkləşdirə bilməyənlər mövcuddur. Onlara mane olan əsas amil isə hər-hansı qadağa deyil, ancaq maliyyə çətinliyidir. ABŞ-da ödənişsiz ali təhsil mövcud olmadığı üçün imkansızlar yalnız uyğun fondlardan uzun müddətli və aşağı faizli (illik 6-8% ətrafında) borc götürməklə təhsil ala bilir. Avropa Birliyi və

Yaponiyada dövlət ali məktəbə daxil olmaq istəyənlərin yalnız bir qisminin xərcini öz üzərinə götürür, digərləri isə ödənişli təhsil almalı olur. İnkişaf etməkdə olan ölkələrdə isə yoxsulluq dərəcəsi yüksək olduğu üçün ödənişli təhsil ala bilməyənlər çoxdur; buna əsas səbəb tələbələrə əlverişli şərtlərlə borc verilməməsidir. Ödənişli təhsil almağa imkanı olan gənclər isə hökumətin qadağalarına görə ali məktəbə qəbul ola bilmirlər, yəni ölkədə ali təhsil əlyetən deyil.

Ali məktəblərə qəbul mexanizmi necədir? Şimali və Mərkəzi Avropada ali məktəblərə qəbul ya orta məktəb imtahanlarındakı orta qiymətə görə, ya məzunluq imtahan qiymətlərinə görə aparılır, yəni xüsusi qəbul imtahanları keçirilmir. Bəzən də tələbə qəbulu ali məktəbə qəbul imtahanları vasitəsi ilə aparılır (orta məktəb məzunluq imtahanları olmayan hallarda) və ya qəbul üçün hər iki imtahanın nəticəsi nəzərə alınır. Əlbəttə, özəl ali məktəblərə tələbə qəbulunu hər yerdə həmin ali məktəblər özü aparır, dövlət bu işə qarışmır (cüzi istisnalarla).

Ali məktəbə qədəm basan tələbələrlə ilk mühüm iş tələbə orientasiya, istiqamətləndirmə günlərinin keçirilməsidir. Tələbənin qəbul olunduğu ali məktəb və ümumiyyətlə ali təhsil haqqında təsəvvürləri qısa zamanda genişləndirilməli, tələbə öz ali mək-

təbini doğma ev, vətən, alma-mater kimi hiss etməlidir. Orientasiyanın vizual və şifahi tərəfi ilə yanaşı yazılı və elektron materialların mövcudluğu vacibdir-tələbələrin Universitə web-sitesi, Universitə kataloqu, müxtəlif qayda və məlumat kitabçaları, o cümlədən tələbə yaddaş kitabçası ilə yaxından tanış olması zəruridir.

Dərslər başlanarkən tələbələr hər fənn üzrə ali məktəbin web-sitesi (internet səhifəsi) vasitəsilə əvvəlcədən və ya ən geci ilk dərs zamanı müəllim tərəfindən dərsin məzmun, forma və imtahan prinsipi barədə məlumatların daxil edildiyi fənn-dərs planı (İngiliscə "syllaby") ilə tanış edilməlidir. Fənn-dərs planı uyğun fənnin məzmunu və biliyin qiymətləndirilməsi barədə müəllimlə tələbələr arasında bağlanmış müqavilə kimi də şərh oluna bilər.

Tələbələrə maliyyələşmə mənbələri, o cümlədən dövlət qaynaqları, bank sistemi, borc və kredit götürmə imkanları, yerli və beynəlxalq fondlar, adlı və xüsusi məqsədli təqaüdlər və s. barədə məlumat və məsləhətlərin verilməsi inkişaf etmiş ölkələrdə adi hala çevrilmişdir, keçid dövründə olan ölkələrdə isə bu cür xidmətlər yenidir və məzmun cəhətdən kasıbdır. Keçid dövründə olan və ödənişli təhsilə geniş yol verən hökumətlərin böyük əksəriyyəti, təəssüf ki, tələbələrə dayaq ola biləcək maliyyələş-

dirmə və borc götürmə sistemi hazırlamayıb. Aşağı (bakalavr) və yuxarı bütün təhsil pillələrində oxumaq istəyən tələbələrə borc götürmək imkanı yaradılmalıdır. Təhsil müddəti başa çatdıqdan bir qədər, məsələn, iki il sonra borclar qaytarılmağa başlanılır və bu, məsələn, 10 il ərzində başa çatdırılır. Ali təhsil almaq istəyənlərə ölkəmizdə faizsiz və ya çox aşağı faizlərlə borc verilməsi məsələsinin Neft Fondu və ya xüsusi qurulmuş digər fond çərçivəsində həll olunması da mümkündür.

Tələbələrə psixoloji, tibbi və hüquqi sahələrdə məsləhətlər verilməsi və ilkin yardımın edilməsi də çox vacibdir; bu işlər, adətən, xüsusi mərkəzlər vasitəsi ilə görülür. Bəzi xidmətlər, məsələn tədrislə bağlı məsləhətlərin verilməsi, uyğun fakültə və ya departmentin yanında, onların iştirakı ilə göstərildiyi halda, digər xidmətlər, məsələn psixoloji yardım daha mərkəzləşdirilmiş qaydada təşkil edilə bilər.

Tələbələrin idman və incəsənətlə məşğul olması həm tələbə həyatının canlı və məzmunlu keçməsinə kömək edir, həm ali məktəblə tələbəni bir-birinə qovuşdurur, tələbələri bir-birinə yaxınlaşdırır.

Ali məktəbdə fəaliyyət göstərən tələbə birlikləri tələbə həyatının təşkilində və ümumiyyətlə ali məktəbin həyatında mühüm rol oynayır. Qərb dünyasında bir ali məktəb daxilində qeydiyyatdan keçmiş

yüzlərlə tələbə birlikləri, klub və təşkilatları, dərnəkləri fəaliyyət göstərir. Ağla gələn hər ideya bir birliyin əsasında dayana bilər – tədrisdə nümunə, vətəndaşlıq, yerliçilik, siyasət, din, elmin müxtəlif sahələrinə maraq, idman, mədəniyyət və incəsənət kimi. Tələbə birlikləri liderlik, özünüidarə kimi xüsusiyyətlərin və bir sıra bacarıq və vərdişlərin, o cümlədən biznes vərdişlərinin inkişafında da rol oynayır.

Fiziki və mental qüsurları olan tələbələrin xüsusi qayğıya və xidmətə ehtiyacı olduğu aydındır. Təəssüf ki, keçid dövründə olan ölkələrdəki ali məktəblərin bu halda da öyünməli cəhətləri çox deyil.

Ali məktəblərdə tələbələrə və yeni məzun olanlara dayaq duran ən vacib xidmətlərdən biri peşə-məşğulluq mərkəzlərinin (career centers) fəaliyyət göstərməsidir. Tələbələri işə düzəlmə psixologiyası və üsulları ilə tanış edən bu mərkəz işverən şirkət və təşkilatlarla yuxarı kurs tələbələri arasında əlaqələr yaratmağa, onları bir-birinə yaxınlaşdırmağa çalışır. Məzunlar assosiasiyasının qurulmasına və fəaliyyətinə kömək etmək də ali məktəbin ciddi işlərindən biridir.

Ali məktəbin idarəedilməsində, o cümlədən də keyfiyyətin artırılması prosesində tələbələrə və məzunlara rol ayrılması mühüm məsələdir.

Ali məktəbdə beynəlxalq tələbə mərkəzinin fəaliyyəti, yəni beynəlxalq tələbə xidmətinin təşkili xarici tələbələrin ali məktəbin həyatına rahat daxil olmasını asanlaşdırır, onları təcrid olunma təhlükəsindən qoruyur, eyni zamanda ali məktəbi müxtəlif mədəniyyətlərin, irq, din və dillərin bərabər mövcud olduğu və bir-birini zənginləşdirdiyi, hətta bir-birini həvəsləndirdiyi məkana çevirir. Mövcud stereotiplərin aradan qaldırılmasında, tələbələrin xoşqılıqlı olmasında, fərqli din, mədəniyyət və irqləri yaxından tanımasında ali məktəbdəki beynəlxalq mühit həlledici rol oynayır. Ali məktəblərimizdə xarici tələbələrin təhsil alması müəllimlərin məsuliyyətini artırır, həmçinin ali məktəbi müəllim seçimində daha diqqətli olmağa məcbur edir. Əlbəttə ki, xarici tələbələrin ölkəmizin xoş məramlı elçilərinə çevriləcəyi də siyasi cəhətdən mühümdür.

## Qloballaşma ilə internasionallaşma. Yollar, meyl və əlamətlər

Qloballaşma ilə internasionallaşma fərqli hadisələrdir. Böyük güclərin yaxın iştirakı ilə baş verən qloballaşma sərbəst bazar iqtisadiyyatı və texnoloji inkişafın törəməsi, məhsuludur. Rabitədə və kompüterləşmiş informasiya sistemlərində fövqəladə sıçrayış bütün dünya boyu iş qurmaq imkanı verir. Universitələrin dünya üzrə sıralandırılmasını, çoxsaylı reyting cədvəllərinin meydana çıxmasını da qloballaşmanın nümayişi saymaq olar. Qloballaşmış iqtisadiyyat rəqabətin həddindən artıq genişləndiyi və qaynaqların çoxaldığı dünya deməkdir. Ziddiyyətli xarakter daşısa da, müəyyən istismara yol açsa da, qloballaşma hadisəsi dünyanı bütövləşdirir. Korporasiyaların ucuz işçi qüvvəsi dalınca başqa ölkələrə baş vurması da buradan gəlir. Qloballaş-

manın güclənməsi ilə sosializmin çökməsi eyni vaxta düşdü və azad iqtisadiyyat dünyanı tam bürüdü (Robert M. Berdahl-2008).

Dünya Bankı, Beynəlxalq Maliyyə Fondu, Dünya Ticarət Təşkilatı kimi, millətlərarası nəhəng korporasiyalar kimi qlobal güclərin hakimiyyəti dövründə ayaq üstündə qalmaq, sonra yerimək, yürümək və zəngin ölkələr sırasına daxil olmaq fövqəladə dərəcədə çətindir. Nəzəri imkan bilik iqtisadiyyatındadır, elm və təhsilin iş dünyası ilə birliyindədir, dövlətin bu işi çox mühüm hesab etməsindədir.

Internasionallaşma milli olanın beynəlxalq aləmə çıxarılmasıdır, lakin nəzarət və idarəetmə əsasən milli olaraq qalır. Qloballaşma isə milli sərhədlərinin aşılmasıdır, millinin nəzarətindən çıxıb dünya bazarına daxil olmaqdır, sərhədlərdən kənarda sərmayə qoyuluşudur. Qlobal bazarı milli hökumət tənzimləyə bilmir. Qloballaşma özəlləşmənin böyük miqyasa çatmasıdır. Ali təhsil sahəsinin qloballaşmaya bu qədər məruz qalacağını, bəlkə mütəxəssislər də gözləmirdilər. Qapalı bir dövlət olan Çində hal-hazırda 1400 ətrafında xarici ali məktəblərin bu və ya başqa formada fəaliyyət göstərməsinə icazə verilibdir!

Ali təhsildə internasionallaşma əsasən tələbə və

elmi işçlərin, idarəedənlərin və müəllimlərin beynəlxalq aləmə çıxışının artması, həmçinin müxtəlif təhsil modellərinin tətbiqi ilə əlaqədardır. Qloballaşma isə ali məktəbin məkanı mühüm dərəcədə aşma qabiliyyətidir. Buraya filialların qurulması, başqa təhsil ocağına lisenziya verilməsi (françayz etmə) də daxildir. Amerikanın, Avstraliyanın, Avropanın və bəzi digər bölgələrin universitələri bu üsuldan istifadə edərək, Çin, ərəb dünyası və digər yerlərdə birbaşa fəaliyyət göstərirlər.

Xarici tələbələrin cəlb edilməsi bütün dünyada ali məktəblərin ən əsas qayğılarından birinə çevrilib. Bir ölkənin gənclərini oxutmaq əvəzinə bütün dünya gənclərini potensial tələbəsi kimi görmək ali məktəbin ən böyük arzusudur və bu, heç də fantastik arzu deyil, sadəcə "dünya içində dünya universitəsi" olmağa çalışmaq lazımdır. 2005-2006-da təhsil eksportu Avstraliyaya 10 milyard Avstraliya dolları gəlir gətirmişdi, bu, turizmdən sonra ikinci yer deməkdir, yun və taxıl kimi Avstraliyanın ənənəvi məhsullarından daha çox deməkdir! (John Niland-2008). Xarici tələbələrin gətirdiyi pullar Birləşmiş Ştatlar kimi nəhəng iqtisadiyyata malik ölkənin beşinci ən böyük xidmət iqtisadiyyatıdır (David Ward-2008).

Təhsildə qloballaşa bilənlər əsasən tədqiqat yön-

lü ali məktəblərdir, yalnız onlar böyük nüfuz sahibidir, sənaye və iş dünyası ilə yalnız onlar dostluq edə bilirlər..

Təhsil ocaqlarının ölkə daxilində, bir qrup ölkəni əhatə edən bölgələrdə və beynəlxalq aləmdə geniş əməkdaşlıq şəbəkələrinin qurulması qloballaşma dövründə güc qazanma cəhətdən zəruriyyətə çevrilmişdir. Təhsil siyasəti üzrə məsləhətləşmələr, birgə dərəcə (joint degree) və ya iki diplom verilməsinə (double degree) hesablanan proqramlar və onların akkreditasiyası təhsildə keyfiyyətin artırılması probleminin həllinə də kömək edə bilir. Bologna Prosesinin tərkib hissəsi kimi Avropa ali məktəblərində birgə magistr və doktor proqramlarının işlənilməsi və birgə dərəcələrin verilməsi nəzərdə tutulmuşdur; bu, hal-hazırda Avropanın çox yerində həyata keçirilməkdədir. Bu şəbəkəqurma fəaliyyəti, təhsil ocağının müstəqilliyini möhkəmlətməkdə, onun hökumətdən asılılığını azaltmaqda da mühüm rol oynayır. Ölkəmizdə bu işi görmə qabiliyyəti olan ali məktəblərə yaşıl işıq yandırmaq lazımdır.

Azərbaycan beynəlxalq tələbə mərkəzinə çevrilmək potensialına malikdir. Mülayim iqlimə və cəlbedici mədəniyyətə malik Azərbaycanı, genişlənən Avropanın bir parçası kimi, dünyanın hər yerindən, xüsusilə də Yaxın Şərq, Hind-Çin dünyası və

Afrikadan gələn tələbələr ölkəsi kimi təsəvvür etmək çətin deyil; bu ölkələrdən bir dəstə tələbə artıq Azərbaycanda təhsil almaqdadır.

Ali məktəblərin fiziki və ruhi cəhətdən sağlamlaşması, tədris plan-proqramlarının müasirləşməsi, bürokratik əngəllərin aradan qaldırılması, ali məktəblərə ilin istənilən vaxtında bu tələbələri dəvət etmək imkan verilməsi Bakını müxtəlif millətlərin və mədəniyyətlərin özünü rahat hiss etdiyi elm, təhsil, mədəniyyət ocağına çevirə bilər. Bu məsələnin siyasi və iqtisadi əhəmiyyəti də çox böyükdür.

## Sənaye-iş dünyası, yüksək texnoloji inkişaf və ali təhsil

Info-bio-nano texnologiyalar! Yeni elmi kəşflər edən, onların tətbiqlərini axtarıb tapan, onları iş dünyasına gətirə bilən ali məktəb-sənaye-iş dünyası birliyi bəşəriyyəti irəli aparan əsas qüvvədir!

Yüksək araşdırmalar gücünə sahib olan ali məktəblə sənaye-iş dünyasını birləşdirən koridor varmı, varsa nədir? Kiçik koridora inkubator deyilir, burada elmi ideya və texnologiyaların tətbiqi ilə kiçik iş qurmaq, onu şirkətə çevirmək məsələsi qoyulur. Böyük koridor isə texnoloji park (texnopark) adlanır, inkubatordakına bənzər iş geniş miqyasda və daha dərindən görülür. Ali məktəbdə çalışan alimlər texnoloji parklar vasitəsi ilə sanki iş dünyasının, böyük şirkət və korporasiyaların tədqiqat və inkişaf bölməsi (Research and Development Division) roluna sahib çıxırlar. İstedadlı tələbələr, xüsusilə yu-

xarı dərəcə (magistr, doktor) almaq üçün oxuyanlar burada praktikadan gələn məsələlər ətrafında tədqiqat aparır, eyni zamanda iş dünyasına bağlanırlar. Azərbaycanda bu sahədə nə qədər maarifləndirmə işi aparsaq da, inkubator işində kiçik işlər görsək də, təəssüf ki, ciddi bir nəticə əldə edə bilməmişik.

Ölkənin strateji inkişafı təbiət elmləri, xüsusilə bio-tibbi sahə və mühəndislik-texnologiya ilə bağlıdır, dünya universitələri əsasən bu istiqamətdə yarışırlar. Onu da qeyd edək ki, bilik iqtisadiyyatının rolunu hamıdan birinci dərk edən çox böyük şirkətlər öz daxilində intellektual güc toplamağa çalışırlar; bəzi şirkətlərdə işləyən Nobel mükafatı laureatlarının və digər nüfuzlu alimlərin sayı universitetlərin çoxu üçün əlçatmazdır.

Yaponyada universitələrlə sənaye-iş dünyası arasındakı münasibətlərə misal: birgə tədqiqat layihələrinin sayı 1991-də 1139 idi, 2004-də isə 9378 oldu, bu müqavilələrin dəyəri həmin müddətdə 5 dəfə artdı! (Yuko Harayama and Rene Carraz-2008).

Çindəki Tsnghua universitəsinin öz holdinqi var (təxminən 260 milyon dollarlıq kapitala sahib). Bu holding bilik iqtisadiyyatı sahələrinə sərmayə qoyur. Sənaye-universitə münasibətləri Qərbə nisbətən Çində daha sıx birgə iş ideyasını həyata keçirməkdədir. Tayvan və Sinqapurda elm parkları döv-

lətin köməyi ilə nəhəng ölçülər almışdır. Sinqapur Asiyanın biotibbi tədqiqat və həmçinin ali təhsil qovşağına çevrilmək məqsədini qarşısına qoymuşdur. Faktik olaraq bir şəhərdən ibarət bu kiçik ölkədə xarici tələbələrin sayı səksən mini keçib (Tony Tan Keng Yam-2008). Burada 1982 və 2000-ci illər arasında Elm parkından təqribən 300 texnologiya şirkəti yaranmışdır (Wayne C. Johnson – 2008).

Universitə-Biznes-Sənaye münasibətləri tətbiqi məsələlərin həlli ilə fundamental məsələlərin həllini sintez etməyə imkan yaradır. Neft və qaz mühəndisliyi, digər texnoloji sahələr, kompyuter elmləri, iqtisadi və siyasi tədqiqatlar, biologiya, səhiyyə, təhsil üzrə maraqlı tədqiqatlar bu baxımdan maliyyə qaynaqları cəlb edə bilir.

Xəzər Universitəsinin işləyib hazırladığı və həyata keçirməkdə olduğu bir əməkdaşlıq modeli barədə qısaca məlumat, zənnimcə, yerinə düşür. Üçbucaq təhsil-sənaye modeli üç tərəfin iştirakını nəzərdə tutur – 1) Xəzər universiteti, 2) şirkət və ya korporasiya, 3) nüfuzlu xarici ali məktəb. Şirkətin qaldırdığı problemlər, məsələn, zəruri tədqiqat işinin aparılması, ixtisasartırma kurslarının təşkili, işçilərin ehtiyac hiss olunan sahə üzrə magistratura pilləsində hazırlanması iki ali məktəbin birlikdə səyi nəticəsində həll edilir. Ali məktəblərin hər biri

təklikdə bu problemi lazımı səviyyədə həll etməkdə çətinlik çəkə bilər (kadrlar, məsafə, diplom və s. kimi məsələlər birgə fəaliyyət nəticəsində daha yaxşı həll olunur). Şirkət, öz növbəsində, ali məktəblərin tədqiqatçı müəllimlərinin təkmilləşdirilməsi üçün maliyyə qaynağı açmaqla, tələbələrə bütün təhsil boyu təqaüdlər təyin etməklə hər iki ali məktəbin inkişafına öz töhfəsini verir. İki ali məktəbin bir-birinə yaxınlaşması, tədqiqatların daha lazımlı sahələrə yönəlməsi, sənaye-iş dünyası ilə əlaqənin inkişafı da hər iki ali məktəb üçün faydalıdır. Böyük Britaniya və Norveç ali məktəbləri, BP və StatoilHydro kimi şirkətlərlə tərəfdaşlığı nəzərdə tutan belə üçbucaq modelinin həyata keçirdiyimiz bir variantı Dünya Bankının 3-cü Bilik İqdisadiyyatı Forumunda ən çox bəyənilən layihələrdən biri olmuşdu (Budapeşt, 23-26 mart, 2004).

İş dünyası, sənaye, elm, ali təhsil və dövlətin birliyi – budur inkişafın təməli!

İlk dəfə öz əqli məhsulunu cəmiyyətə açıq elan etmək işində MIT böyük, o vaxta qədər görünməmiş addım atdı - internetdə 1800-ə yaxın fənnə açıq giriş elan etdi (OpenCourseWare – AçıqFənn Toplusu). Fənnin planı, mühazirə mətnləri, misal-məsələ həlli, laboratoriya və layihə işlərinin planı, imtahan materialları...açıq, ödənişsiz istifadəyə verildi.

Dünyanın hər yerində həm müəllimlər, həm tələbələr bu xəzinədən faydalanırlar (Azərbaycanda bu imkandan istifadə edilməyi barədə eşitməmişəm). Müxtəlif ölkələrdə buna bənzər digər addımlar da atıldı, o cümlədən "OpenCourseWare" Çində mandarincəyə və ispandilli ölkələrdə ispancaya tərcümə edilir. Ən görkəmli işlərdən biri Google-2007 print kitabxana layihəsi oldu – bir sıra universitetlərin kitabxanasını rəqəmləşdirmək, scan-elektron surət çıxarmaq yolu ilə dünyaya açmaq işi başlanıldı (məsələni nisbətən məhdudlaşdıran yeganə cəhət müəllif hüquqlarının qorunmasıdır). Bu cür açılmalar təhsilə heyrətamiz imkanlar verir və bu cür universitələr dünyanı əhatə edən, dünyaya yayılan "Meta Universitə"yə çevrilirlər (Vest-2006). İnsanın meydana gətirdiyi bütün yazılı qaynaqları cəmi insanlara çatdırmaq imkanı bəşəriyyətin hər zaman arzuladığı azad və bərabər imkanlar dünyasının qurulması işinə böyük xidmətdir. "Məkan, zaman, monopoliya və ya arxaik qanunlarla məhdudlaşmayan, bilik cəmiyyətinin ehtiyaclarına cavab verən, texnologiya ilə əl-qolu açılmış və bütün bəşəriyyətə xidmət etmək gücünə malik qlobal universitet" (James J. Duderstadt-2008) qurmaq arzusu gözəldir! Bu yolda sadalanan əngəllərə bizim cəmiyyətə xas olan stereotipləri, önyarğıları, ortalama yanaşmaları da

əlavə etmək olar.

İnternet dünyasının ən maraqlı lıayihələrindən biri hər bir insanın yaza bildiyi və düzəlişlər edə bildiyi "Wikipedia" adlı virtual ensiklopediyadır. Bu xəzinəni həmişə ensiklopediya nümunəsi hesab olunan "Encyclopaedia Britannica" ilə müqayisə edirlər. Sonuncunun elmi dəqiqliyi həlledici üstünlük kimi göstərilir. Bu belədir, lakin əhatə genişliyi, durmadan yeniləşməsi, zamanla yanaşı addımlaması "Wikipedia"nın böyük üstünlüklərini ortaya qoyur. Maraq üçün Azərbaycan və azərbaycanlılar mövzusunu iki ensiklopediyada müqayisə etsək müqayisəedilməz nəticələrə gətirib çıxarır. Bir tərəfdə Qara Qarayevi erməni bəstəkarı kimi qələmə verən, mövzumuzu çox xəsisliklə işıqlandıran "Encyclopaedia Britannica"nı, digər yanda mövzumuzu çox geniş əhatə edən, ilk addım üçün kifayət qədər məlumat verən "Wikipedia"nı görəcəyik.

İnformasiya texnologiyaları cəmiyyəti dəyişdirən, köhnəni yeni ilə əvəz edən, köhnəni yeniləşdirən qüvvədir.

Dünyamızda məsafələr azalıb, obrazlı dildə məsafələrin yox olduğunu, öldüyünü deyirlər. İnternet dünyası insanları, müxtəlif qurumları, xalq və dövlətləri "bizi təcrid ediblər" ah-vayından azad edib. Nə istəyirsən yaz və dünyanın elan lövhəsinə - inter-

netə yerləşdir ki, hamı xəbərdar olsun. Gənclər, xüsusilə yeniyetmələr yeni kompüter-internet sivilizasiyasının üzvləridir, elektron dünyanın vətəndaşlarıdır.

Milli İnternet ərazilərinin- xüsusi ünvanların (National Domains) sayına görə vəziyyətimiz elə də ürəkaçan deyil, 2007-ci ilin sonlarına olan məlumatdan bəzi misallara baxaq: Niderland – 17 400 000, Çex Respublikası – 6 230 000, Türkiyə – 1 160 000, Estonia – 479 000, Gürcüstan – 68 000, Ermənistan – 60 800, Monqolustan – 20 300, Azərbaycan – 19 300. Ölkə əhalisinə nisbətdə internet ərazilərinin həcminə görə isə (2 milyon 692 min səhifə) internet ərazilərinin sayı ilə müqayisədə azca yaxşıyıq – dünyada 89-cu yerdəyik (Estoniya –10, Ermənistan – 69, Gürcüstan –72-cidirlər).

## Ali təhsilin maliyyələşdirilməsi

Təhsil sisteminin maliyyələşdirilməsi dövlətin əlində təhsil sisteminin idarəedilməsi üçün əsas ideya və üsuldur, bütün inkişaf etmiş ölkələrin təcrübəsi bunu söyləyir. Üstəlik "hərə layiq olduğu yeri tutsun" prinsipinin kökündə də ali məktəblərin dövlət tərəfindən müsabiqə əsasında maliyyələşdirilməsi nəzərdə tutulur. Bu gün ölkəmizdə istifadə olunan ali məktəblərin dövlət tərəfindən birbaşa maliyyələşdirilməsi mexanizmi qəti surətdə müasir meyllərə cavab vermir, ali məktəblərin rəqabət əsasında inkişafına xidmət etmir, daha doğrusu, bu inkişafa mane olur.

Əvvəl də qeyd etdiyimiz kimi, əsl ali məktəblər qlobal rəqabətə davam gətirməlidir, bütün dünya üzrə yarışda iştirak etməlidir. Ali təhsil sistemimizdə rəqabətin aparıcı gücə çevrilməməsi, azad rəqa-

bət şəraitinin yaranmaması ali məktəblərimizin inkişafdan qalmasının əsas səbəblərindən biridir. Azərbaycanda yaxşı ya pis, keyfiyyətli ya keyfiyyətsiz təhsil verməsindən asılı olmayaraq bütün dövlət ali məktəbləri onlara dövlət tərəfindən ayrılmış “pay”ı alır. Əslində isə dövlət ali məktəbi deyil, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi qəbul imtahanlarında (və ya orta məktəbi bitirmək üçün keçirilən obyektiv imtahanlarda) uğur qazananları birbaşa maliyyələşdirsəydi və onlar bu maliyyə vəsaitini seçdikləri, ürəkdən istədikləri ali məktəbə təqdim edərək orada oxusaydılar, bütün maraqlı tərəflər qazanardı. Dövlət maliyyələşdirməni artırmadan onun daha ədalətli paylanmasını həll edər, ali məktəblər dövlət təhsil təqaüdünü qazanan tələbələri cəlb etmək üçün keyfiyyəti artırmaq yolu ilə daha müasir və cazibədar olmağa çalışardı. Bu paylanma vasitəsi ilə özəl ali məktəblər də dolayı yolla dövlətdən layiq olduqları köməyi almış olardı. Oxumaq arzusunda olanlar isə pulsuzluqdan məcbur olduqları pulsuz və keyfiyyətsiz ali məktəb əvəzinə ürəkdən seçim edə bilərdi.

Ali məktəbə qəbul olan tələbələri maliyyələşdirməklə yanaşı dövlət müstəqil akkreditasiyanın rəyi və ali məktəbin təqdim etdiyi əsaslandırılmış layihə əsasında hər ali məktəb üçün müəyyən özək (ingi-

liscə çox işlənən “core”) vəsait də ayırmaqla maliyyələşmə sisteminin ilk iki xəttini müəyyən etmiş olardı. Maliyyələşmənin üçüncü xətti ali məktəbin öz tədqiqat və inkişaf (R&D) xarakteri daşıyan layihələri əsasında milli və beynəlxalq fondlardan aldığı vəsaitlərdən, dördüncüsü isə ali məktəbə bağışlanılan vəsaitlərdən təşkil oluna bilər. Bağışlanılan vəsait ali məktəbin sərbəst, gəlir gətirən, sərmayə edilən fondudur (Ingiliscə “endowment”).

Yaponiyada 2001-ci il universitə islahat proqramı tərəfsiz qiymətləndirmə və müsabiqə yolu ilə bütün ali məktəblərin (milli-dövlət, dövlət və özəl) inkişafı, yüksək standartlara cavab verməsinə mütənasib maliyyələşdirilməni ön plana çəkdi. Onu da qeyd edək ki, 2001-də Təhsil, Elm, İdman və Mədəniyyət nazirliyi Elm və Texnologiya Agentliyi ilə birləşdirilərək Yaponiya Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiya nazirliyinə çevrildi. Eyni zamanda dövlət universitələrinin cari xərclərinin hər il müəyyən miqdarda azaldılması da qərara alındı.

Rusiyada 2006-cı ildə təqdim edilmiş ən yaxşı layihələrə əsasən keçirilən yarışın nəticəsində 17 ali məktəb birinci dərəcəli, 40-ı isə ikinci dərəcəli qalib elan edildi; hər ali məktəb iki il müddətinə 8 milyon dollarla 40 milyon dollar (ekvivalent) arasında maliyyə yardımına layiq görüldü. Bu maliyyə yardımı-

nın təyinatı mühüm cihazlara və aparıcı xarici universitetlərə göndərilmək də daxil olmaqla elmi-tədqiqata kömək idi (Vladimir Troyan-2008).

Çində dünya səviyyəli müəyyən sayda ali məktəbin yaranmasına kömək məqsədilə 1998-ci ildə Çin hökumətinin başçısı yeni proqram elan etdi. Müsabiqə əsasında seçilən ali məktəblər hökumətdən böyük maliyyə dəstəyi aldılar, 9 ali məktəb xüsusi fərqlə irəli çəkildi (Jie Zhang-2008).

Bir daha qeyd edək ki, maliyyələşdirməni tam dövlət işi hesab edənlər böyük azlıqda qalacaqlarına şübhə etməsinlər. Amerika Birləşmiş Ştatlarında maliyyə qaynaqlarının 25 %-i federal ştatdan, 20%-i mərkəzi dövlətdən, 55%-i isə özəl bölmədən (təhsil haqqı, korporasiyalar və xeyriyyəçilikdən) gəlir. Bu balans özəl bölməyə doğru dəyişməkdədir. Bir çox iri tədqiqat yönlü ictimai (public) universitələrinin dövlətdən aldığı cəmi kömək onun maliyyəsinin 20-25 faizini təşkil edir (və ya daha aşağıdır).

## Ali təhsildə qanunvericilik siyasəti

Ali təhsilin və ümumiyyətlə təhsilin strukturu, əsas prinsip və qaydaları ölkənin Təhsil Qanununda öz əksini tapmalıdır. Təəssüf ki, 1992-ci ildə qəbul olunan təhsil qanununun bir sıra maddələri dondu-rulduğuna və bir qismi də köhnəldiyinə görə ölkədə təhsil siyasəti təhsil qanununa deyil, lobbiçiliyə və insanlararası münasibətlərə əsaslanmaqdadır. Müa-sir meylləri özündə əks etdirə bilən təhsil qanunu-nun yazılması və parlamentdə qəbul edilməsi cəhd-ləri son 10-12 ildə heç bir nəticə verməmişdir. Təh-sil qanununun dəyişən dünyamızı, elm və tədrisin təşkilində müasir meylləri geniş və dərindən nəzər-də tutaraq hazırlanması və qəbul edilməsi təhsil siyasətimizin formalaşması baxımından vacibdir. Digər tərəfdən isə, bu qədər gözlədikdən sonra mü-hüm yeniliklərlə dolu olmayan ortalama bir təhsil

qanununun qəbul edilməsi yolverilməzdir. Müasir meylləri, göz önündə dayanan problemləri, Avropaya və dünyaya inteqrasiyanı özündə ciddi şəkildə əks etdirməyən yeni təhsil qanunu irəliyə deyil, geriyə doğru atılmış addım olardı. Hazırlanmaqda olan "2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" Təhsil Qanunu layiyəsinin yeniləşməsində də mühüm dərəcədə rol oynaya bilər.

Normativ hüquqi bazanın müasir inkişaf meyllərinə uyğunlaşdırılması işi mütəxəssislər və əlaqədar tərəflər arasında müzakirələrdən keçərək görülməlidir. Bu hüquqi baza işə əngəl törədən, müəyyən məqsədlərlə işi dolaşığa salmağa cəhd edən bürokratik ünsürlərdən, ifadə və maddələrdən azad edilməli, təbii, anlaşılan, sistemli və biraddımlı maddələrdən təşkil olunmalıdır.

Bir daha qeyd edək ki, təhsilin qanunvericilik bazası keyfiyyəti müəyyən edən akkreditasiyanın müstəqilliyini, ali məktəblərin layiq olduqları məsuliyyətli və şəffaf müstəqilliyini, ali məktəbin yuxarıda göstərilən maliyyələşmə prinsiplərini, tələbələrin maliyyələşdirilməsi və borc alması prinsiplərini, təhsil ocaqlarının əlavə dəyər və mənfəət vergisi kimi əngəllərdən azad edilməsini özündə ehtiva etməlidir. Yenə dünya təcrübəsi birmənalı şəkildə gös-

tərir ki, ali məktəblərə vergi tətbiq oluna bilməz. Ali məktəblər özəl və dövlət mənsubiyyətindən asılı olmayaraq "gəlir güdməyən" (ingiliscə not for profik, non-profit) təşkilatlardır, yəni əldə olunan vəsait yalnız ali məktəbin inkişafına sərf olunmalıdır (gəlir gündən, ingiliscə "for profit" ali məktəblər də var, məsələn Birləşmiş Ştatlarda. Onlar özəl şirkətlər qanununa görə işləyir və bu halda vergi verirlər; bizdə bunun tətbiqi hal-hazırda doğru olmazdı).

Əsl (dövlət və ya özəl) ali məktəbin büdcəsinin yalnız bir hissəsi (yarıdan xeyli az hissəsi) tələbələrin təhsil haqqından formalaşır, büdcənin digər hissəsi dövlətdən, korporasiyalardan və digər qaynaqlardan bəhrələnir; bu halda ali məktəbin vergi verməsi absurddur. Üstəlik şirkət və korporasiyaların, ayrı-ayrı fərdlərin təhsil ocaqlarına yardım etməsinə imkan yaradan vergi güzəştlərinin tətbiq edilməsi ali təhsilin inkişafına gərək olan ən fundamental məsələlərdəndir! Birləşmiş Ştatlarda və bir sıra digər ölkələrdə ali məktəblərin inkişafında bu vergi güzəştlər həlledici rol oynayır!

Təhsil qanunvericiliyi aydın və mükəmməl deyilsə, dünya ilə səsləşmirsə ali təhsil sisteminin inkişafından danışmaq çətindir. Qeyri-müəyyənlik təhsil ocaqlarının strateji inkişaf və fəaliyyət planı üzərində işləməsini qeyri-adi dərəcədə çətinləşdirir.

## Ali təhsil və elmi araşdırmalar

Ölkəmizin iqtisadiyyatında olan artım və inkişaf, təəssüf ki, elmi-tədqiqat sahəsində müşahidə olunmur. Elmi-tədqiqat gücü zəifləyib, elmi-tədqiqata maraq azalıb. Elmi kadrlar qocalır və yeni nəsil tədqiqatçılar ciddi məktəb keçmirlər. Elmi tədqiqat institutlarında və ali məktəblərdə çalışan alimlərimizin bir qismi əsl elmi-tədqiqatla deyil, elmi don geyindirilmiş mənasız və ya səthi məsələlərlə məşğul olurlar, yəni təbliğ olunan elm əslində elm deyil, elmə əyalətsayağı yanaşma növüdür.

Müasir texnologiyaların inkişafının elmi baza üzərində qurulması, müasir iqtisadiyyatın bilik, elm iqtisadiyyatına çevrilməsi bu gün bəşəriyyətin inkişafında elmin rolunu daha da artırır. Onu da qeyd edək ki, tədris prosesindən fərqli olaraq elmi-tədqiqat işi mühüm dərəcədə ölçülə billəndir. Bu səbəb-

lərdən dünya ali məktəblərinin yarışında elmi araşdırma gücü əsas göstərici olaraq götürülür. Elmi tədqiqatların, xüsusilə təbiət elmləri, mühəndislik və texnologiya sahəsindəki araşdırmaların gücü, səviyyəsi nüfuzlu elmi jurnallarda dərc olunan məqalələr, eləcə də onları istinad qaynağı kimi göstərən başqa məqalələrin qiymətləndirilməsi vasitəsi ilə müəyyən edilir. Bu mütləq və ideal göstərici olma sa da, dünya elmi ictimaiyyəti tərəfindən qəbul olunub və intellektual gücü əks etdirir. Məsələn, SCI (Science Citation Index), SSCI (Social Sciences Citation Index), A&HCI (Arts and Humanities Citation Index) kimi beynəlxalq sitat-istinad indekslərinə görə ali məktəb və elmi-tədqiqat institutlarının dəyərləndirilməsi elm-təhsil dairələrində hamıya yaxşı məlumdur. Bu göstəricilərə görə biz tək inkişaf etmiş ölkələrdən deyil qonşularımızın da hamısından geri qalırıq.

On ildə - 1996-2005-ci illərdə Azərbaycan alimlərinin yuxarıda göstərilən tip elmi jurnallarda cəmi 2010 məqaləsi dərc olunub. Həmin dövrdə Livanlılar (əhalisi 3 milyon yarıma yaxın) 9149, İordaniya (əhalisi 5 milyon yarım) – 6513, Küveyt (3 milyondan az) – 5900, Oman (2 milyondan bir az artıq) – 2399, Finlandiya (5 milyon) – 86 608, İrlandiya (4 milyon) – 60 690, Türkiyə - 87 629, İran – 21 596

məqalə dərc edib. Bu göstəriciyə görə Azərbaycan İslam ölkələri arasında 21-ci yerdədir. Həmin dövrdə əhalisinin hər milyon nəfərinə nisbətdə dərc olunmuş məqalələrin sayına görə Azərbaycan çox ölkələrdən, məsələn Qambiya, Qabon, Mərakeşdən geri qalır; Azərbaycanın bu göstərici 245,1, Finlandiya – 16 559,8, İrlandiya – 14 928,3 – dür.

Nanotexnologiya, bio-tibbi texnologiya, genom kimi elmin ən müasir və gələcəyimizi dəyişdirəcək sahələrində geriliyimiz...dəhşətli dərəcədədir. Burada yeni söz demək böyük elmi məktəb və təşkilati-maliyyə gücü tələb edir. İndi bizim qarşımızda daha sadə məsələ durur – bu yüksək texnologiyalar sahəsində dünyada nələr baş verdiyini anlamaq və mümkün olarsa, baş verənlərdən bəhrələnmək, istifadə etmək... Yenilikləri yaratmasaq da, nə baş verdiyini anlayaq, heç olmazsa yaxşı ıstifadəçi olaq; tədbir görə bilməsək istifadə etmək üçün də, məsələn, İrana, Türkiyəyə müraciət etməli olacağıq.

Ali təhsildə elmi araşdırmaların gücləndirilməsi və Elmlər Akademiyası sisteminin kökündən dəyişdirilməsi təxirəsalınmaz zərurətiyyətə çevrilib. Elmlər Akademiyasını bir qədər cavanlaşdırmaqla, bir az ixtisarlar aparmaqla, dövlətdən daha çox pul qoparmaq və ya olduğuna bənzər şəkildə reanimasiya etməyə çalışmaqla məsələ həll olunan deyil. Ümu-

miyyətlə, elmdə Sovet dövrünə xas olan geniş miqyas götürülməsi, dövlətin ayrı-ayrı saysız-hesabsız elmi-tədqiqat institutlarını maliyyələşirməsi nə elmin, nə texnologiyanın, nə də təhsilin müasir inkişaf meyllərini əks etdirmir. Elmlər Akademiyasında elmi işçilərin çox az qismi fəal tədqiqat aparır, çox böyük qismi isə digərlərinin hesabına, daha doğrusu, hökumətin rəhmi hesabına yaşamaqdadır.

Elm, təhsil və digər sahələrdə dövlətin düzgün maliyyələşdirmə siyasəti tək miqdarca artımdan ibarət ola bilməz, həmin maliyyənin nə dərəcədə səmərəli istifadəsi də çox vacib məsələdir. Yenə də yada salaq ki, inkişaf etmiş dövlətlərdə elmi tədqiqatların böyük hissəsi dövlət tərəfindən deyil, korporasiyalar tərəfindən maliyyələşdirilir. Yüksək texnologiyanın yaranması və yeniləşməsi elmi araşdırmalarla sıx bağlı olduğu üçün korporasiyalar elmə sərmayə qoymağa çalışır. Bu, təbii ki, elmi tədqiqatların daha yüksək səviyyədə olmasını, elmi araşdırmaların texnologiyanın inkişafı istiqamətində aparılmasını tələb edir. Təhsil və elmdə beynəlxalq təcrübəni və bilik iqtisadiyyatı adlandırılan iqtisadi inkişaf strategiyasını nəzərdə tutaraq ciddi islahatların aparılması zəruridir, onları gecikdirmək ölkənin inkişafını gecikdirir. Diqqətlə seçilmiş elmi sahələr və beynəlxalq aləmlə səsləşə bilən layihə-

lərə müsabiqə əsasında qrant verilmə sisteminin tətbiq edilməsi yeganə düzgün yoldur. Bu fikrin müzakirəsi və həyata keçirilmə mexanizminin hazırlanması Elmlər Akademiyasının tamamilə yenidən və elmi institutlar şəbəkəsi kimi deyil, elmi dəyərləndirmə mərkəzi kimi qurulmasına təkan verərdi. Elmlər Akademiyası nəzdindəki institutların ali məktəblərə yaxınlaşdırılması və birləşdirilməsi (bunun nə şəkildə aparılması müzakirə oluna bilər), Təhsil Nazirliyinin bir çox ölkələrdə olduğu kimi Elm və Təhsil Nazirliyinə çevrilməsi elm-təhsil sektorunun məzmun və forma cəhətdən yeniləşməsi yolunda həlledici addım ola bilər.

Elmi dərəcələrin Ali Attestasiya Komitəsində (AAK) təsdiq olunmasını hal-hazırda ən arxaik işlərdən biri hesab etmək olar. Qonşu Gürcüstanda da bu sistem tam ləğv olundu. Elmi adların verilməsi ali məktəbin öz işi və öz məsuliyyətidir. Arxaik sistemləri saxlamaqla keyfiyyətə nail olunmur, tam əksinə, bu halda ali məktəblər və elmi-tədqiqat institutları günahları AAK-nın üstünə atır, məsuliyyətdən qaçırlar. AAK-nın fəaliyyəti ilə əslində korrupsiya zəncirinin bir halqası da artır. Yeganə yol yeniləşmə içində keyfiyyət mexanizminin yaradılmasıdır.

Rusiyada universitetlərlə elmlər akademiyası institutlarının qovuşması siyasəti öz müsbət nəticələ-

rini verməkdədir. Gürcüstanda isə elmi layihələrin müsabiqə yolu ilə maliyyələşdirilməsi elmi-tədqiqat qurumlarının əsas maliyyələşmə formasına çevrilib.

## Ali məktəb və əmək bazarı

Əmək bazarı ilə ali təhsilli kadr hazırlığı arasında əlaqənin elmi və praktik tərəfləri ölkəmizdə ən az öyrənilmiş, bəlkə də heç araşdırılmamış bir məsələdir. Bir tərəfdən kadrlara olan tələbatı ölkənin inkişaf strategiyası və dövlətin ali təhsili maliyyələşdirmə siyasəti ilə əlaqələndirmək, digər tərəfdən isə ali məktəblərimizi elm, tədris, maddi baza, aktuallıq, tutum, üstün ixtisas sahələri, keyfiyyət və s. baxımdan ciddi araşdırmaq lazımdır. Başqa sözlə desək, dövlət təhsil və inkişaf proqramı ilə hər ali məktəbin kadr hazırlığındakı rolu tutuşdurularaq tələbə qəbuluna ixtisas sahələri və say baxımından dövlət sifarişi müəyyən edilə bilər. Dövlət sifarişi məhz dövlətin maliyyələşdirmək istədiyi iştisas və ali məktəblərin, fakültələrin müəyyən edilməsidir – dünyada olduğu kimi.

Hal-hazırda bütün ali məktəblərə total qəbul planı müəyyən edilməsi təhsilin əlyetən olması və ümumiyyətlə, hər cəhətdən zərərlidir. Dövlət yalnız öz sifarişlərini plana daxil etsin və maliyyələşdirsin. Bu plandan kənarda isə ali məktəb sərbəst tələbə qəbulu aparmalıdır.

Ölkədə üstün inkişaf sahələri müəyyən edilibsə, bu, kadr hazırlığı planı üçün də vacibdir. Məsələn, regionların inkişafı strategiyası, yeni iş yerlərinin açılma dinamikası, müxtəlif sektorların işə götürmə tutumu nəzərə alınmalıdır.

Lakin bunları mütləqləşdirmək olmaz, bilik iqtisadiyyatı innovasiyalarla doludur, müxtəlif sahələrin yeri və rolu dəyişir, sahələrarası yeni, maraqlı işlər meydana çıxır. Üstəlik qloballaşma mütəxəssislərin bir yerdən başqa yerə axınına səbəb olur; müxtəlif ölkələrdə iş qurma arzu və imkanlarının ağlagəlməz dərəcədə artdığı bir zamanda yaşayırıq. Azərbaycanda hazırlanan mütəxəssis dünyanın hər yerində işləyə bilər...

Orta məktəblərin yuxarı siniflərində və valideynlər arasında arzu olunan ixtisaslar barədə sosioloji sorğu aparmaq, eləcə də müasir kadrlara olan tələbat spektrini iş verən milli və beynəlxalq təşkilatlarla müzakirə etmək də əmək bazarı və ali təhsil əlaqələrini anlamağa kömək edərdi.

Ali təhsil dərəcələrindən daha geniş olan beynəlxalq (məsələn, UNESCO) peşə-iş təsnifatının öyrənilməsi, onun önbakalavr (orta məktəbdən sonra - ali təhsildən əvvəl, məsələn, ikiillik kiçik mütəxəssis hazırlığı), bakalavr, magistr, 5 və ya 6 illik yüksək peşə hazırlığı, doktor (PhD) və digər mümkün təhsil-tədqiqat dərəcələri ilə həmahəngliyini təmin etməyə çalışmaq lazımdır.

Azərbaycan gənclərinin dövlət hesabına xaricdə təhsil almaları üçün nəzərdə tutulan üstün sahələrin düzgün müəyyən edilməsi, onların dövri olaraq nəzərdən keçirilməsi vacibdir. Həmçinin gənclərimizin xarci ölkələrdə bakalavr pilləsində deyil, əsasən magistr və doktor dərəcələri və yüksək peşə hazırlığı üzrə təhsil almalarına çalışmaq lazımdır. Tövsiyə olunan ali məktəblərin siyahisini isə ixtisaslara uyğun hazırlamaq doğrudur, ali məktəb ümumiyyətlə deyil, bəlli sahələrdə güclü olur. Bu siyahini kifayət qədər geniş etməklə yanaşı, onu ilbəil yeniləşdirmək zəruridir. Əlbəttə ki, heç bir siyahi düzəltmədən, xarici ali məktəblərə qəbul olunan tələbələrin təqaüd almaq üçün müraciətlərini ciddi və obyektiv dəyərləndirmək kifayət edərdi. Ancaq biz millətin hər şeyi əvvəlcədən siyahiyə salmaq və bu işdə fərqlənmək ehtirası var; heç olmazsa bu siyahıların geniş və həqiqi mənzərəyə yaxın olmasına

çalışmaq lazımdır.

Əmək bazarının dəyişən tələbini əvvəlcədən dəqiq müəyyən etmək mümkün olmur, həm də insanlar öz iş yerlərini, yiyələndikləri peşələri dəyişdirmək həvəsində və ya məcburiyyətində qalırlar. Bu səbəbdən nəzərdə tutulan işin bilik iqtisadiyyatına uyğun effektliliyini təmin etmək üçün düzəldilən qeyri-formal (bəlli təhsil dərəcəsi almadan) təhsil və treyninqlər iş dünyasında mühüm yer tutur. Bu sahədə dünya liderləri hansı ölkələrdir? Bütün işçilərin Danimarkada 46%-i, İsveç və İsveçrədə 45%-i, Finlandiya və Birləşmiş Ştatlarda 44%-i iş yerində qeyri-formal təhsil və ya treyninqlə əhatə olunurlar.

## Ali məktəb, sərvət və innovasiya

Sərvət və ali məktəb! Laertli Diogen "Məşhur filosofların həyatı, təlimləri və kəlamları haqqında" əsərində bir hadisə danışır. Sokratın tələbələrindən Aristippə (Aristippusa) sual verirlər: nə üçün varlı adamlar alimlərin yanına getmir, amma alimlər varlıların yanına gedir? Aristipp cavab verir: çünki varlılar elmin qədrini bilmir, alimlər isə sərvətin qədrini bilirlər. Bu fikir zəmanəmizdə cərəyan edən "Ali məktəb və sərvət" məsələsinə ön söz kimi qəbul edilə bilər. İndi alim və sərvət problemi Antik dövrlə müqayisəolunmaz dərəcədə böyük ölçülərə çatıb və həlledici gücə çevrilib! Əlbəttə biz problemə geniş mənada deyil, "ali məktəblərin inkişafı və sərvət" müstəvisində yanaşırıq.

Ali məktəblərin elmi-tədqiqat sahəsində böyük güc qazanması, elmi nəticələrin sənaye və iş dünya

sında yaranan problemlərin həllinə tətbiq olunması, ali məktəbin kitabxanası, laboratporiyaları və kampusunun qurulması və inkişafı böyük maliyyə gücü tələb edir. Bunu tək dövlətin hesabına və ya tələbələrin təhsil haqqı hesabına həll etmək mümkün deyil. Bu məsələlərin həlli ali məktəbə milli və beynəlxalq korporasiyalar və şirkətlərin, varlanmış məzunlar və qismən də dövlətin köməyinə bağlıdır.

Təhsil və elmə qeyri-adi dərəcədə himayəçilik ən çox Birləşmiş Ştatlarda yayılmış, Amerika ali məktəblərinin güclənməsinin mühüm səbəblərindən birinə çevrilmişdir. Avropada, xüsusilə Böyük Britaniyada da belə xeyriyyəçilik ali məktəblərin inkişafında rol oynayır. Türkiyə və İranda da təhsil ocaqlarına özəl bölmənin və ayrı-ayrı şəxslərin müəyyən qayğısına rast gəlinir, Azərbaycanda isə bu sahədə vəziyyət yaxşı deyil. Əliaçıq və imkanlı şəxslərimiz sağa-sola xərcləməyə hazır olsalar da, müəyyən sayda uşaqları oxutmaq üçün və ya ali məktəbin laboratoriyasına, tikintisinə kömək üçün (və öz adlarını tarixə salmaq üçün!) vəsait sərf etməyə qəti meylli deyillər.

Dünyada nüfuz qazanmış ali məktəbin gücü onun malik olduğu sərvətlə, sərmayə qoymaq üçün malik olduğu sərbəst fondla (endowment) düz mütənasibdir. 2007-ci il iyunun 30-na olan məlumata

görə Harvard – $34,9 milyard, Yale-22,5, Stanford-17,2, Princeton-15,8, University of Texas-14,4, MIT (Massaçusets Texnologiya İnstitutu) -10 milyard dollar sərbəst pula sahibdirlər. Bunun bir nəticəsinə baxaq: üç Amerika ali məktəbinin – Harvard, Yale və MİT-nin elmi və texniki jurnallarda (SCI, SSCI, A&HCI qruplarına daxil olan bütün jurnallarda) çap olunan məqalələrinin ümumi sayı bütün Rusiyanın çap etdiyi uyğun məqalələrin sayından çoxdur! Harvardın sərbəst sərvəti Amerikanın bütün ictimai (public) universitələrinin cəmi sərvətindən çoxdur. Bu ona bank və daşınmaz əmlak inkişafı ilə məşğul olan müəssisə kimi də hərəkət etməyə imkan verir. Son bir ildə Harvard Universitəsi öz sərvətini 5,7 milyard dollar artırmağa müvəffəq oldu! Dünyanın bu ən böyük təhsil fondunun idarəedilməsi, o cümlədən sərmayə siyasəti Harvard Management Company tərəfindən aparılır, son bir ildə 23% qazanc olduğu bildirilir (The Chronicle of Higher Education, September 7, 2007).

Başqa ölkələrdə bu işin görülməsi vergi siyasətinin mühüm dərəcədə dəyişməsini, ali məktəblərə yönələn xeyriyyəçilik siyasətini həvəsləndirməyi tələb edir (James Duderstadt, Jerry Taggart and Luc Weber-2008). Ali məktəb sərvət yaradan, bilik iqtisadiyyatının təməlində dayanan qurumdur, lakin

onun da öz inkişafı üçün sərvətə ehtiyacı var. Şirkətlərə, holdinqlərə, korporasiyalara elm-təhsil ocaqlarının inkişafına yönələn vergi güzəştlərinin edilməsi bizim də qarşımızda dayanan ən vacib məsələlərdən biridir.

Başda Birləşmiş Ştatlar olmaqla dünyanın aparıcı ölkələrinə yüksək səviyyəli beyin axını bir tərəfi gücləndirir, ona beyin qazandırır (Brain gain), digər tərəfləri isə zəka baxımından kasıblaşdırır, beyin itkisi (Brain drain) baş verir. Bu meylin qarşısını almaq mümkün deyil (hətta qərbi Avropalılar bunu bacarmırlar!). Lakin, ölkənin və seçilmiş az sayda ali məktəbin çox güclənməsi bu beyin itkilərini fəal gəliş-gedişə, beyin gücünün ikitərəfli hərəkətinə (Brain circulation) çevirmək üzərində çalışmağa imkan verərdi.

Tədqiqat yönlü məşhur universitetlər tələbə sayını deyil, büdcəni və sərbəst sərvəti-endowmenti artırmağa çalışırlar. Məsələn, 1993-dən 2004-ə kimi Birləşmiş Ştatların 30 aparıcı tədqiqat universitəsinin büdcəsi 70 faizdən çox artdığı halda, tələbə sayı cəmi 8 faiz artıb, hətta bunlardan beşində tələbə sayı azalıb. Bənzər müqayisə 25 ən böyük korporasiyaya da aiddir. Onlar 30 il əvvələ görə ÜDM-a daha çox pay versələr də, bunu 40 faiz daha az işçi ilə ediblər (Carl Schramm – 2008).

## Ali təhsil ocaqlarının maddi bazası və ölçüsü

Ali məktəb məkan etibarilə, əvvəllər də qeyd etdiyimiz kimi, öz qanun və qaydaları olan, əhalisinin əsas hissəsi gənclər, tələbələr olan bir şəhərcikdir. Bu şəhərciyin adına latınca sahə, bölgə mənası verən kampus deyilir. Kampus müəyyən sahədə yerləşmiş binalardan əmələ gəlir. Təəssüf ki, sovet ali məktəblərinin bir yerdə cəmlənmiş geniş kampusları olmayıb (cüzi istisnalarla). Ali məktəblərin binaları şəhərin müxtəlif tərəflərində, bir-birindən aralı, səpələnmiş şəkildə olub (ali məktəb, əsasən, bir və ya bir yerdə cəm olan bir neçə binada yerləşib). Postsovet məkanında, o cümlədən Azərbaycanda bu barədə vəziyyət dəyişməyib. Ali məktəblərin özlərinin yer almağa və böyük tikintilər etməyə gücü çatmır (hökumətin təyin etdiyi uyğun

qanuni qiymətə, əlbəttə ki, torpaq almaq mümkün olardı...). Ali məktəb kampusunda, təbii ki, tədris və inzibati binalar, müxtəlif tələblərə cavab verən tələbə yataqxanaları, qonaq evləri və müəllimlər (ən azı uzaqdan və xaricdən gələnlər) üçün yaşayış evləri, yeməkxanalar, idman komleksi, xidmət sahələri əsas yeri tutur.

Lakin ali məktəbin canı müasir kitabxana və informasiya sistemində, tədris və tədqiqat laboratoriyalarındadır, onların səviyyəsi ali məktəbin gücünə birbaşa işarədir. Azərbaycan ali təhsil sisteminin ən yaralı yerlərindən biri məhz müasir kitabxana-informasiya bazasının kasıblığı, zəifliyi və müasir laboratoriyaların yoxluğudur (burada vəziyyəti düzgün əks etdirməyə, zənnimcə, kasıblıq sözündən daha çox yoxluq sözü yarayır).

Ali məktəbdə mətbəə və nəşriyyat ola da bilər, olmaya da, ali məktəb bu işdə daha çox istehsalçı deyil, istifadəçidir.

Azərbaycanda ali məktəblərin elm, texnologiya, keyfiyyətli təhsil, maddi baza və digər cəhətlərə görə zəifliyi göz qabağındadır. Lakin elm-təhsil sahəsində indiyə qədər qısa, orta və uzun müddətli dövlət proqramları olmadığına görə yeni dövrdə də bir sıra səhvlər edilib.

Dövlət ali məktəblərini birləşdirmək və bu yolla

onları gücləndirmək, daha effektli etmək əvəzinə çoxsaylı xırda dövlət ali məktəbləri yaradılıb (bir zamanlar "özəl ali məktəblər göbələk kimi artır" ifadəsi dəbdə idi...). Böyük-kiçikliyindən asılı olmayaraq ali məktəbdə uyğun kitabxana və laboratoriyalar, elmi mühit və idarəetmə, kadrlardan ən yaxşı, optimal yolla istifadə etmək, çox sayda müxtəlif fənnləri tədris etmək lazım gəlir; bunun üçün müəyyən gücə malik olmaq zəruridir. Mövcud dövlət universitələrinin müəyyən təbii yollarla birləşdirilməsinə ehtiyac var. Onda həmin ali məktəblər öz qarşılarına daha ciddi məsələlər qoyub həll etmək imkanı qazanardılar. Kampus tikintisi, böyük və müasir kitabxana, yataqxanalar, laboratoriyalar, texnoloji parklar, daha böyük elmi tədqiqat bölməsi və beynəlxalq əlaqələr, insan potensialından səmərəli istifadə, dövlətin daha çevik və aydın planlaşdırma və maliyyələşdirmə siyasəti, ali məktəbin sənaye və iş dünyası ilə daha faydalı əlaqələrinin qurulması imkanları artardı.

Böyük dövlətlərdə ÜDM və dövlət büdcəsinin həcmi böyüdükcə böyük işlər görmək imkanı yarandığı kimi, böyük ali məktəblərdə də imkanlar böyüyür. Azərbaycanda dövlət ali məktəblərinin profilləri də müəyyən dərəcədə nəzərə alınmaqla tələbələrinin sayı 5 minlə 10-12 min arasında olması

hər cəhətdən uyğun və əlverişli olardı. Çox geniş profilli olmayan ali məktəblərin çox böyük olması da yaxşı deyil, bu həm keyfiyyətin təmin olunmasını çox çətinləşdirir, həm də müəyyən monopolist meyllərin artmasına yol açır.

Söylədiklərimiz inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə gedən uyğun proseslərlə tam səsləşir. Birləşmiş Ştatlarda, Yaponiyada, Türkiyə və İranda, ümumiyyətlə əksər ölkələrdə dövlət universitetlərinin həcmi üzərində düşünülür, kiçiklərin birləşdirilməsi planı hazırlanır və həyata keçirilir. 2001-ci ildə Yaponiyanın 99 milli-dövlət (public national) universiteti vardı, 2005-də birləşmələr nəticəsində bu say 87 oldu; hökumət bu işin davam edəcəyini, son sayın 65-ə yaxın olacağını bildirib, yəni milli universitetlərin ən azı üçdə ikisi birləşdirilib böyüdülür (Yuko, Harayama, Rene Carraz-2008).

Gürcüstanda bu sahədə maraqlı addımlar atılıb. Rusiyada bir sıra dövlət ali məktəblərinin birləşdirilməsi sayəsində Federal Cənub Universiteti, Federal Sibir Universiteti yaradılıb; onların qarşısına keyfiyyətli elm-təhsil ocağına çevrilmək, beynəlxalq akkreditasiyalar almaq vəzifəsi qoyulub.

## Biz də xarici ölkəyik!

Keçid dövründə olan ölkələr və onların bir sıra vətəndaşlarında “ver” psixologiyası üstün olur. “Ey xarici dövlət, ey xarici fondlar, biz kasıbıq, biz yazığıq, bizim ehtiyacımız var, bizə pul verin, bizi oxumağa, treyninqə göndərin”. Lakin yadımızdan çıxarmayaq ki, biz də xarici ölkəyik, xarici dövlətik – Azərbaycandan kənarda yaşayan bütün xalqlar və ölkələr üçün! Üstəlik “bizim ölkəmiz də gözəldir” deyirik, “qədim dərin və rəngarəng mədəniyyətimiz var” deyirik, “bizim də ölkəmiz, xalqımız, dövlətimiz inkişaf edir, biz də güclənirik” deyirik.

Nöqsanlarımızı, zəif cəhətlərimizi tənqid etməklə yanaşı vətənimizi sevirik, dilimizi, mədəniyyətimizi sevirik, ən gözəl, ən zəngin ölkələrə səfər edərkən ölkəmiz üçün darıxırıq. Biz də böyüklük göstərək, biz də xaricilərə nə isə verək, onları Azər-

baycana gətirək, onlara bizi anlamağa, bizi öyrənməyə kömək edək. Bu bizim də xeyrimizədir, bizi yaxşı cəhətdən tanıyanların, bizi dünyada tanıdanların, bizi sevənlərin sayı artsa yaxşıdır.

Xaricilərin bizim ali məktəblərdə oxuması, tədqiqat aparması üçün bizim də fondlarımız olsun! Xüsusilə Azərbaycanşünas olmaq istəyənlərə, Azərbaycanla, bizim regionla dünyanın digər bölgələri arasındakı münasibətləri araşdırmaq istəyənlərə niyə qrantlar verməyək, təqaüdlər verməyək – təbii ki, müsabiqə yolu ilə. Bu iş daha çox dövlətimizə aid olsa da, ali məktəblərimiz də kənarda dayanmamalıdırlar. Xəzər universitəsində azərbaycanşünaslıq üzrə belə bir iş görülür. Gürcüstanın son zamanlar xarici tədqiqatçılara xüsusi qrantlar verməyə başlandığını da qeyd etmək istəyirəm.

Orta məktəbi Azərbaycanda bitirən xaricilərə də Azərbaycan vətəndaşları kimi ali məktəblərə imtahan verib, imtahanın nəticəsindən asılı olaraq ödənişsiz oxumaq, hətta təqaüd almaq və ya borc alıb oxumaq hüququ verilsə yaxşıdır. Nəinki inkişaf etmiş ABŞ, Kanada, Qərbi Avropa, Yaponiya və s. ölkələr, hətta inkişaf etməkdə olan bir sıra dövlətlər də xarici tələbələri cəlb etmək üçün xeyli maliyyə sərf etməkdən çəkinmirlər. Çin ildə 12 min çinli tələbəyə xaricdə oxumaq üçün, eyni zamanda ildə 10

min xarici tələbəyə də Çində oxumaq üçün təqaüd verir! (The Chronicle of Higher Education, June 8, 2007).

## Hər gün mükəmməlliyə doğru

Ali təhsil sistemimizin köklü islahatlara ehtiyacı var. Bu islahatlar planı "2008-2012-ci illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın əsasında dayanmalıdır. Əslində ali təhsil sistemimizin yenidənqurulması işi aparılmalıdır, gecikmədən və qaça-qaçsız, düşünə-düşünə və kompaniya xarakteri daşımadan, üzdən-üzdən deyil, dərindən, buraxdığımız səhvləri azca, kosmetik düzəltmək yolu ilə deyil, dünya təcrübəsini cəsarətlə nəzərə almaqla, qüsurlu, yarımçıq şəkildə deyil, peşəkarlıqla! Hər il, hər ay, hər gün ciddi işlər getməlidir.

İnnovasiya sözünün hərfi mənası (in-novasiya) mövcud olanın içində yenilik etmək, olanı dəyişdirmək, yeniləşdirmək deməkdir. Köhnəni yeniləşdirmək çətin işdir, amma zəruridir. Bunu bəzən asta-

asta, bəzən radikal şəkildə həll etmək lazım gəlir.

Ali məktəb müəllimlərinin (eləcə də orta və ibtidai məktəb müəllimlərinin) təkmilləşdirilməsi mexanizmi qurulmaldır. Burada özəl bölmə, onun ən yaxşı qurumları də mühüm rol oynaya bilər. Ali məktəb müəllimləri xarici dilləri, xüsusilə ingilis dilini bilmirsə, tədqiqat işində, yeniliyə qovuşmaqda çətinlik çəkəcək. Müəllimlik idealogiyasına yenidən nəzər salmaq zəruridir. Mühazirəçi müəllim kimi, hər şeyi bilən və son sözü deyən nüfuzlu şəxs kimi deyil, məşqçi kimi hərəkət etmək müasir ali məktəbin ruhuna daha uyğundur.

Ali məktəblərarası yarış ruhunu gücləndirmək (bu heç olmadığı üçün əvvəlcə onu yaratmaq), keyfiyyətin tərəfsiz və peşəkarcasına qiymətləndirilməsi işini ön plana çəkmək lazımdır. Dünya universitələrinin reyting cədvələri idmanda olan yarışa, turnir cədvəllərinə bənzəyir. İnkişaf etmiş və ya inkişaf etməkdə olan böyük dövlətlər (Çin kimi) öz universitələrini gücləndirib reytinq cədvəllərində yüksək yer tutmasını (məsələn birinci yüzlüyə düşməsini) təmin etməyi ciddi dövlət işi hesab edir, buna görə müəyyən sayda universitəni seçir, ölkədə "dünya səviyyəli" ali məktəbin əmələ gəlməsinə çalışırlar. Yarışda uğur qazanmaq üçün qabaqcıl dünya keyfiyyətinə nail olmaq, beynəlxalq əməkdaşlığı

mühüm dərəcədə gücləndirmək zəruridir!

Hal-hazırda bir çox ölkələrdə hətta dövlət universitələri də bazarın müəyyən etdiyi iş dünyası qanunlarına az-çox uyğun hərəkət etməyə məcburdurlar. Amerikada vüsət alan bu meyl Avropaya, Avstraliya və Asiyaya da nüfuz etmiş və öz bəhrələrini verməkdədir (Howard Newby -2008).

Ali və orta-ixtisas-peşə təhsil ocaqlarında strateji inkişaf və fəaliyyət plan-proqramlarının hazırlanması və həyata keçirilməsi dünyada qəbul olunmuş təkmilləşmə mexanizmidir. Bizim ali məktəblərimizdə bu varmı?

## Gələcəyə nikbin baxış

Azərbaycan zəngin neft və qaz ölkəsidir. Yeraltı sərvətlər yer üzünün işıqlanmasında rol oynayır, həyatın yer üstündə də zəngin olmasına zəmin yaradır. Üstəlik, əhalinin savada, biliyə sosializmdən miras qalmış meylliliyi, Azərbaycanın əlverişli iqlim və kənd təsərrüfatı zonalarına malik olması, eləcə də Şərqin Qərbi, Qərbin Şərqi, Şimalın Cənubu və Cənubun Şimalı kimi rollarda çıxış etməsi bu ölkənin yüksək templə inkişafına əsas verir. Təsadüfi deyil ki, Ümumi Daxili Məhsulun artım sürətinə görə Azərbaycan dünya rekordçusudur. Tərəfsiz beynəlxalq proqnozlar da Azərbaycanın inkişafına nikbin gözlə baxmağa əsas verir. Müqayisə üçün qeyd edək ki, 2005-ci ildə Ermənistanın ümumdaxili məhsulunun həcmi Azərbaycanın ÜDM-nun 38 faizini təşkil edirdi, BMİ (Business Monitor İnterna-

tional Ltd) proqnozlarına görə Ermənistan İqtisadiyyatı həcmcə Azərbaycan İqtisadiyyatından getgedə daha da geri qalacaq, 2010-cu ildə onun ancaq beşdə biri qədər olacaq (21%).

Lakin yaxın zəfər coşğunluğu altında kef çəkmək vaxtı deyil. Qloballaşmanın mənfi təsirlərini azaltmaq, qazancın aparıcı olduğu müasir dünyada hər kəsin irəli getməsinə çalışmaq lazımdır. Gerçəkliklə arzu arasında uçurum yaranmamalıdır.

Hal-hazırda Azərbaycan hökuməti neft ehtiyatlarının, yəni qara qızılın insan potensialını, insan inkişafını gücləndirmək işində rolunu vurğulayaraq "Qara qızılın insan qızılına çevrilməsi" kimi iddialı proqram irəli sürmüşdür. Burada təhsilin inkişafı da xüsusi yer tutur, o cümlədən vətəndaşların xaricdə aparıcı universitələrdə və Azərbaycanda ciddi təhsil-təlim alması üçün təqaüd proqramı qismən işə düşmüşdür. Digər tərəfdən, tək tələbə təqaüdləri deyil, qurumlararası, məsələn, xarici universitələrlə Azərbaycan ali təhsil ocaqları arasında əməkdaşlıq proqramlarının müsabiqə əsasında maliyyələşdirilməsi də təhsilin inkişafı strategiyasında mühüm yer tutmalıdır.

Dünya təcrübəsi göstərir ki, beynəlxalq tələbə mübadiləsinin artırılması və özəl bölmənin güclənməsi üç böyük problemin – ali təhsilin əlyetən ol-

masının, dövlətin ali təhsilə çəkdiyi xərclərin səmərəli olmasının (həddindən çox böyüməməsinin) və ali təhsildə keyfiyyəti artırmağın həllinə kömək edir.

Və bir daha yada salaq – iş dünyası, sənaye, dövlət, elm və ali məktəbin səylərini birləşdirmək – budur inkişaf! "Dövlət ali məktəblər üçün nə edə bilər?" sualı "ali məktəblər dövlət üçün nə edə bilər?" sualı ilə yanaşı qoyulmalıdır!

Keçid iqtisadiyyatında olan ölkələrdə keçid dövrünün nə vaxt başlandığı məlumdur, onun nə vaxt qurtaracağı isə geniş müzakirə mövzusuna çevrilməyib. Bu barədə tarix öz hökmünü verəcək. Mümkündür ki, uzun gözləmək lazım gəlməyəcək. Azərbaycan Respublikası kimi böyük iqtisadi artım müşaiyət olunan ölkələrdə keçidin sonunda güclü iqtisadiyyata, sosial güvənliyə, yüksək mədəniyyətə malik bir dövlətin qurulması elm və təhsilin düzgün inkişafından mühüm dərəcədə asılıdır.

ISBN 978-9952-20-044-7

**Hamlet Isaxanli**

# What is happening in the education system of the contemporary world

**and**

**what is good for "the State Program on Reforms of Higher Education System in the Republic of Azerbaijan for the period of 2008-2012"?**

© Khazar University Press

Baku, Azerbaijan